# COP29-un 3 önəmli enerji təşəbbüsü elan edildi



**Beynəlxalq iqlim konfransının Enerji Günü çərçivəsində COP29-un enerji təşəbbüsləri üzrə Nazirlər Görüşü keçirilib. Tədbirdə üç mühüm enerji təşəbbüsü – COP29 Qlobal enerji saxlama və şəbəkələr vədi, COP29 Yaşıl enerji vədi: Yaşıl enerji zonaları və dəhlizləri və COP29 Hidrogen Bəyannaməsi təqdim edilib.**

COP29 qlobal enerji saxlama və şəbəkələr vədi 2030-cu ilə qədər qlobal enerji saxlama sistemlərinin 1500 qiqvat gücünə çatdırılmasını və 25 milyon kilometr, 2040-cı ilə qədər isə əlavə 65 milyon kilometr elektrik şəbəkəsinin qurulması və ya təmiri öhdəliyini daşıyır. Bu vəd bərpaolunan enerji mənbələrinin istifadəsini təşviq edərək qlobal enerji sistemlərinin dayanıqlılığını təmin etmək məqsədinə xidmət edir.

COP29 yaşıl enerji zonaları və dəhlizləri vədi çərçivəsində qitələrarası və regionlararası yaşıl enerji zonalarının yaradılması nəzərdə tutulur. Bu təşəbbüs, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə uyğundur və iqtisadi inkişafı təşviq edir, resurslardan səmərəli istifadəni dəstəkləyir.

Hidrogen haqqında COP29 Bəyannaməsi isə təmiz hidrogen istehsalının artırılması, mövcud hidrogen istehsalında karbon tullantılarının sıfıra endirilməsi istiqamətində qlobal səyləri gücləndirməyə çağırır. Bu təşəbbüs yaşıl iqtisadiyyata keçid prosesində qlobal bazarı stimullaşdırmaq və beynəlxalq standartların inkişafına dəstək vermək məqsədi daşıyır.

Görüşdə çıxış edən energetika naziri Pərviz Şahbazov dünyanın iqlim və enerji yolunda taleyüklü bir mərhələyə daxil olduğu bir vaxtda Azərbaycanın yaşıl enerji zonaları, yaşıl enerji dəhlizləri, enerji saxlama, şəbəkə infrastrukturu və hidrogen sahəsindəki təşəbbüsləri qlobal iqlim hədəflərinə çatmaq üçün həlledici rol oynadığını bildirib.

*(ardı 9-cu səhifədə)*




Xalqın qəzeti!

# Xalq qəzeti

№ 252 (30656) 16 noyabr 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## PAXILLIQ

### *Bəlkə, siyasi riyakarlıq?*

**2012-ci ilin mayında "Evrovision" mahnı müsabiqəsi, 2015-ci ilin iyununda ilk Avropa Oyunları və nəhayət, 2024-cü ilin noyabrında tarixə "maliyyə COP-u" kimi düşəcək BMT-nin İqlim Sammiti Azərbaycanın çağdaş salnaməsinin parlaq səhifəsidir. Bu beynəlxalq tədbirlər, sadəcə, keçirildiyi ünvana görə deyil, həm də miqyasına və yüksək təşkilatçılıq qabiliyyətinə görə ev sahibinin dünyaya taybatay açılan qapılarıdır.**



Artıq Azərbaycan ermənilərin ideoloji diversiyası və informasiya blokadasından əziyyət çəkən 30 il əvvəlki dövlət deyil. Xaricdəki erməni diasporunun, haylara dəstək verən "kollektiv Qərbin" feyk-təbliğat mirajından qurtulacağımız, qəddimizi dikəldib dünyanın gözünün içinə dik baxacağımız məqam gəlməli idi. Bu gün hər bir azərbaycanlı qürurla həmin tarixi məqamın sevincini yaşayır.

* * *

BMT-nin Bakıda keçirilən İqlim Sammiti planetdə zülmün və ayrı-seçkiliyin kim tərəfindən idarə olunduğunu dünyaya bir daha xatırlatmaq üçün ən mötəbər tribuna, əlverişli fürsət oldu. Alternativ enerji ilə "yaşıl dünyaya" keçidin konturlarının müəyyən edildiyi COP29 həm də bu məqsəd üçün əla platformadır. Axı, bəşəriyyətin problemləri bir-birindən təcrid olunmuş şəkildə mövcud deyil. Burada insanların, dövlətlərin təbiətə münasibəti məsələsi daim ön plandadır. Tarix sübut etdi ki, müstəmləkə təkəbbürü təkcə siyasi repressiyalara deyil, həm də ekoloji fəlakətlərə gətirib çıxarır.

Azərbaycan Prezidenti İlham Əliyev COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitində çıxışında Qərbin bəzi dövlətlərini, Avropa institutlarını ədalətli tənqidə məruz qoydu. Konkret olaraq Fransanın, Niderlandın Afrikada, Okeaniyada neokolonialist siyasətlərinə, kiçik ada dövlətlərin iqliminə və insanlarına tutduqları divandan danışdı. Dövlətimizin başçısının çıxışı Parisin, Amsterdamın, eləcə də Brüsseldə Avropa İttifaqının çətiri altına toplaşmış bəzi siyasi liderlərin dünyagörüşlərindəki paradiqmaların dəyişilməsi dövrünün çatmasına işarə idi. Artıq Kainatın mərkəzi rolunu oynamaq mərhələsini adlamış həmin siyasilərə işarə təkcə Bakıdan, qlobal Cənub ölkələrindən deyil, eyni zamanda, bu düşərgənin tərəfdaşı olan Vaşinqtondan verilir.

*(ardı 4-cü səhifədə)*

# Azərbaycanın yaşıl potensialı təmiz enerjiyə çevrilir

## *İqlim konfransında ölkəmizin hidrogen strategiyası təqdim edilib*




**Bakı iqlim konfransı çərçivəsində Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi və Hidrogen Şurasının təşkilatçılığı ilə "Təmiz hidrogen iqtisadiyyatının təmin edilməsi və yeni təchizat zəncirlərinin inkişafı" adlı tədbirdə Azərbaycanın hidrogen üzrə milli strateji baxış sənədinin təqdimatı keçirilib. Bu barədə "XQ"yə Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyindən məlumat verilib.**

Bildirilib ki, tədbirdə çıxış edən energetika nazirinin müavini Samir Vəliyev Azərbaycanın yaşıl enerji keçidi istiqamətində atdığı addımlardan, yaşıl hidrogen istehsalı və ixracı planlarından danışıb. Nazir müavini yaşıl hidrogenin hazırda qlobal emissiyaların əhəmiyyətli hissəsini təşkil edən ağır sənaye, nəqliyyat və gəmiçilik kimi elektrikləşdirilməsi çətin olan sektorların karbonsuzlaşdırılması üçün zəruriliyini vurğulayıb.

COP29 sədrliyinin enerji sahəsində irəli sürdüyü üç təşəbbüsdən birinin hidrogen bəyannaməsi olduğunu xatırladan S. Vəliyev deyib ki, bu təşəbbüs ölkələrin daxili hidrogen bazarlarını inkişaf etdirərək istehsal qabiliyyətlərini artırmalarına və regional bazarların inkişafına dəstək olmalarına hesablanıb. Elə Azərbaycanın Hidrogen üzrə Milli Strateji Baxış sənədi də məhz bu məqsədlə hazırlanıb.

*(ardı 8-ci səhifədə)*

# Mina terroru ekologiyaya ciddi ziyan vurur, biomüxtəlifliyi məhv edir

**Bir neçə gün öncə 44 günlük Vətən müharibəsinin ölkəmizin Zəfəri ilə başa çatmasının 4 ili tamam oldu. Ötən il keçirilən bir günlük lokal xarakterli antiterror tədbirlərindən, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin edilməsindən sonra bu tarixi Qələbə daha möhtəşəm, daha əzəmətli görünməyə başladı. Bu il noyabrın 8-də paytaxtın ən gözəl yerlərindən birində Zəfər parkının açılması, burada müasir üslubda Zəfər abidəsinin – parlaq Qələbəmizin yeni simvolunun yaradılması xalqımıza bir aləm sevinc bəxş elədi.**



Düşmən işğalında 30 ilə yaxın inləyən, 4 ildir azadlığına qovuşmuş ərazilərdə hazırda böyük tikinti-quruculuq işləri gedir. Azad edilmiş bütün şəhərlərin baş planları təsdiqlənib. Bir sıra şəhərlərdə müəyyən yaşayış məhəllələri istifadəyə verilib. Ermənistan–Azərbaycan sərhədi boyunca ərazi bütövlüyümüz təmin edilir və keçmiş qaçqın və məcburi köçkünlər öz dədə-baba torpaqlarına qayıdırlar. Demək olar ki, hər həftə Böyük Qayıdış Proqramı çərçivəsində soydaşlarımızın doğma yurd-yuvalarına dönmələrinə dair məlumatlara şahidlik edirik.

*(ardı 4-cü səhifədə)*

# İqlim dəyişmələri və neokolonializm

## *Azərbaycan yeni müstəmləkəçiliyi qətiyyətlə ifşa edir*

**Hesab edirik ki, COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) sammitində səslənmiş fikirlər, xüsusən, Prezident İlham Əliyevin bildirdikləri hələ uzun müddət həmin dövlətləri istismara məruz qoyanların yaddaşından silinməyəcək. Yazımızda bu barədə söz açacaq, tədbirdə səslənən bəzi fikirləri diqqətə çatdıracaq, ölkəmizin COP29-a evsahibliyi ilə ortaya qoyduğu qətiyyətli mövqeyin ayrı-ayrı təzahürlərinə nəzər salacağıq.**

Ondan başlayaq ki, sammitin moderatoru, Millətlər Birliyi Təşkilatının (Commonwealth) baş katibi Patrisia Skotlend toplantının iqlim dəyişmələrinin ən kəskin təsiri ilə üzləşən ölkələrin rəhbərlərinin eşidilməsi baxımından əhəmiyyətindən söz açdı. Həqiqətən, tədbirdə belə bir imkan nəinki yarandı, habelə XXI əsrdə müstəmləkəçiliyi siyasətə çevirənlər, sözün əsl mənasında, ifşa edildilər. Əlbəttə, Prezident İlham Əliyev mövcud istiqamətdə daha qətiyyətli yanaşmanı ortaya qoyaraq, bir növ, hər şeyi öz adı ilə çağırdı.



Bəli, dövlətimizin başçısının timsalında ölkəmizin, belə demək mümkünsə, ifşa ritorikasına üstünlük verməyə tam haqqı çatır. Çünki xanım Skotlendin bildirdiyi kimi, Azərbaycan öz iqtisadiyyatının tam və yaddaqalan transformasiyasına nail olub: "Biz onun iqlim fəaliyyətində rolunun artmasının, daha güclü beynəlxalq tərəfdaşlığın qurulmasının, xüsusən də BMT, Qoşulmama Hərəkatı və Millətlər Birliyi kimi təşkilatlar vasitəsilə əməkdaşlığı gücləndirdiyinin şahidiyik. Həmin təşkilatlarda Azərbaycan etibarlı iqtisadi artım və müqavimət gücünü təşviq edib".

*(ardı 3-cü səhifədə)*

COP29 Baku Azerbaijan

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

COP29 Baku Azerbaijan

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Ali təhsildə yeni məzmunlu təhsil proqramlarının əhatə dairəsinin genişləndirilməsi və maliyyələşdirilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin müasirləşməsi məqsədilə ali təhsildə tətbiq olunan yeni məzmunlu proqramların əhatə dairəsinin və keyfiyyətinin artırılması üçün tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Bu baxımdan ali təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə yaradılmış və 2014-cü ildən fəaliyyətə başlayan SABAH proqramı çərçivəsində ali təhsil sistemində yeni məzmunlu proqramların tətbiqi təcrübəsi özünü doğruldur. Bu proqram çərçivəsində tədrisin mütərəqqi forma və metodlarının tətbiqi, ixtisas üzrə kompetensiyalara tam yiyələnmənin təmin olunması, dərinləşdirilmiş xarici dil tədrisi, tələbələrə əlavə təqaüd verilməsi, onların xarici mübadilə proqramlarında iştirakı imkanlarının artırılması, tələbəyönümlü tədrisin və tədrisdənkənar fəaliyyətin təşkili kimi üstünlüklər gənclərin ali təhsilin yeni məzmunlu təhsil proqramlarına marağını daha da artırmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ali təhsil sistemində kəmiyyət əsaslı maliyyələşdirmədən keyfiyyət əsaslı maliyyələşdirməyə keçidin təmin olunması və maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

**1** SABAH proqramının əhatə dairəsi 2025–2026-cı tədris ilindən başlayaraq mərhələlərlə 2028-ci ilədək genişləndirilsin.

**2** SABAH proqramı ilə təhsil alan tələbələrin təhsil xərclərinin maliyyələşdirilməsi müvafiq illərin dövlət büdcəsində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi üçün nəzərdə tutulmuş məqsədli vəsaitlər hesabına təmin edilsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**4** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi:

4.1. mülkiyyət formasından asılı olmayaraq, ali təhsil müəssisələrində SABAH proqramının təşkili ilə bağlı tələbləri müəyyən etsin;

4.2. hər növbəti tədris ili üçün SABAH proqramı təşkil ediləcək ali təhsil müəssisələrinin siyahısını, təhsilalanların sayını, hər bir təhsilalana düşən illik təhsil xərcinin miqdarını və ilkin mərhələdə tədrisin təşkili ilə bağlı digər xərclərin (yeni məzmunlu təhsil proqramlarının hazırlanması, tədris infrastrukturunun və maddi-texniki bazanın formalaşdırılması və s.) maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin həcmini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla müəyyən etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 15 noyabr 2024-cü il**

# "Dünya Azərbaycanı, sanki, yenidən tanıdı..."

**Bakıda böyük izdihamla keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət ünvanlayıb. Müraciətin mətnini təqdim edirik.**

**Hörmətli İlham Heydər oğlu!**

COP29-un böyük uğurla keçirilməsi, Sizin bu tədbirdə parlaq çıxışlarınız ölkəmizin başını daha da ucaltdı. Bədxahlarımızın bütün cəhdlərinə baxmayaraq, dünya Azərbaycanı sanki kəşf etdi, yenidən tanıdı. Qədim tarixi, zəngin və əlvan mədəniyyəti olan, bu gün qurucu bir həyatla yaşayan, dini və milli dözümlülük, tolerantlıq amallarına daima sadiq qalan, otuz il işğal altında qalmış və vandallar tərəfindən xarabaya çevrilmiş torpaqlarını öz gücü ilə azad edən, ərazi bütövlüyünü son qarışınacan əbədi bərpa edən qürurlu və məğrur bir xalqın vətəni Azərbaycan – Ulu öndərin dediyi kimi, dünyaya günəş kimi doğdu.

O da təsadüfi deyildir ki, müqəddəs dinimiz İslamın Yaşılı ilə Təbiətin rəmzi olan Yaşıl bir vəhdətdə – mənəvi və əxlaqi dəyərlər vəhdətində qovuşur.

Ayrı-ayrı insanlar içində paxıllar olduğu kimi, paxıl dövlətlər də var. Daha doğrusu, paxıl siyasətçilər tərəfindən idarə olunmağa məruz qalmış məmləkətlər. Füsunkar təbiətimizə, yeraltı sərvətlərimizə həsəd çəkənlər, hətta dənizimizə, küləklərimizə, bol-bol günəşli günlərimizə də qısqanclıqla yanaşırlar. Bizi təkləmək, boykot etmək cəhdləri də məhz bu gücsüz hiddətdən, aciz hikkədən doğur. Ölkəmizi təkləmək istəyənlərin arzuları ürəklərində qaldı. Özləri təkləndilər.

Fransız xalqı bəşəriyyətə ədəbiyyat, sənət, elm, maarif sahəsində dahi insanlar bəxş etmiş böyük millətdir. Amma bu ölkənin müstəmləkəçilik xumarından hələ də ayılmamış bədnam siyasətçiləri əzdikləri xalqların fəryadını, iqlim fəsadı ilə tamamilə yox olmaq təhlükəsinə görə çəkdikləri harayı eşitmək istəmirlər. Zəbt etdikləri xalqlara öz doğma dillərini unutdurub fransız dilini sırıyan müstəmləkəçilər bu məqsədlə hətta fransızca danışan ölkələr birliyi – frankofon təşkilatı yaradıblar. Amma indi nə XIX əsrdir, nə də XX yüzillik. XXI əsrdə bu təşkilatın yalnız iki üzvdən ibarət qalması realdır – Fransanın özündən, bir də "frankofon" Ermənistandan.

**Hörmətli Prezidentim!**

44 günlük zəfər savaşından və 23 saatlıq antiterror əməliyyatından sonra COP29-un Bakımızda belə möhtəşəm keçirilməsi şəxsən Sizin, xalqımızın, müstəqil dövlətimizin Üçüncü tarixi qələbəsidir.

**XQ**

# Milli Məclis sədrinin COP29 iştirakçıları ilə görüşləri

**Noyabrın 15-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Tanzaniya Milli Assambleyasının sədri, Parlamentlərarası İttifaqın (PAİ) prezidenti Tulia Akson ilə görüşüb.**



Görüşdə Azərbaycan ilə PAİ arasında əməkdaşlıq, Bakıda keçirilən COP29-un əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb.

COP29-un yüksək səviyyədə təşkilindən məmnunluğunu bildirən qonaq qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin qonaqlarla ayrıca görüşməsi, onları dinləməsi və göstərilən diqqət yüksək qiymətləndirilir. PAİ prezidenti göstərilən qonaqpərvərliyə görə Azərbaycanın dövlət başçısına təşəkkürünü ifadə edib. O, xüsusilə kiçik ada dövlətlərinin səsinin COP29-da eşidilməsinə şərait yaradıldığı üçün Azərbaycan tərəfinə minnətdarlığını bildirib.

Görüşdə Azərbaycanın kiçik ada dövlətlərinə göstərdiyi yardımlar, həmçinin ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə irəli sürdüyü təşəbbüslər haqqında da danışılıb.

Görüşdə Azərbaycan Milli Məclisi ilə Tanzaniya Milli Assambleyası arasında əlaqələrin inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə də müzakirələr aparılıb.

*

**Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın (PAİ) Baş katibi Martin Çunqonqla da görüşüb.**

Görüşdə ölkəmizin COP29 Sədrliyindən irəli gələn məsələlər, həmçinin Bakıda COP29 çərçivəsində Parlamentlərarası İttifaq və Milli Məclisin birgə təşkilatçılığı ilə keçiriləcək Parlament Görüşünə hazırlıq istiqamətində görülən işlər haqqında fikir mübadiləsi aparılıb.

Martin Çunqonq COP29 kimi vacib qlobal tədbirə ev sahibliyi etdiyi üçün ölkəmizə təbriklərini çatdırıb. O, COP29-a hazırlıq işlərinin yüksək səviyyədə aparıldığını vurğulayıb.

Görüşdə Milli Məclislə Parlamentlərarası İttifaq arasındakı münasibətlər yüksək dəyərləndirilib, Azərbaycanın PAİ-nin tədbirlərində fəal iştirak etdiyi, tərəflər arasında uğurlu əməkdaşlığın mövcud olduğu bildirilib. Bu əməkdaşlığın nəticəsi olaraq, COP29 çərçivəsində keçiriləcək Parlament Görüşünün yüksək səviyyədə keçiriləcəyinə inam ifadə edilib.

*

**Milli Məclisin sədri Sahibə Qafarova Tonqa Krallığının Qanunvericilik Məclisinin sədri Lord Fkafanua Fatafehi ilə də görüşüb.**

Söhbət zamanı Azərbaycanın Millətlər Birliyi ilə əməkdaşlıq məsələləri, bu təşkilat vasitəsilə kiçik ada dövlətlərinə göstərdiyi humanitar, texniki yardımlar barədə məlumat verilib.

Lord Fkafanua Fatafehi kiçik ada dövlətlərinin iqlim ədalətsizliyi ilə üzləşdiklərini diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan kimi yeni dostların bu dövlətlərə iqlim dəyişikliklərinə uyğunlaşmağa göstərdiyi yardım çox böyük əhəmiyyətə malikdir. O, ümidvar olduğunu söyləyib ki, həm COP29, həm də Parlament Görüşü çərçivəsində keçirilən müzakirələr məhsuldar olacaq və iqlim dəyişikliyi ilə bağlı məsələlərin həllinə mühüm töhfələr verəcək.

Söhbət zamanı parlamentlərimiz arasında əməkdaşlıq imkanları barədə də fikir mübadiləsi aparılıb.

*

**Dünən Məclisin sədri Sahibə Qafarova Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının 76-cı Baş naziri, Lordlar Palatasının üzvü, Baronessa Tereza Mey ilə də görüşüb.**

Baronessa Tereza Mey belə vacib qlobal tədbirə ev sahibliyi ilə bağlı ölkəmizi təbrik edib, 70 mindən çox nümayəndənin qatıldığı COP29-un bütün dünyanın diqqətində olduğunu deyib.

S.Qafarova iqlim dəyişikliyinin təsirlərinə məruz qalan ölkə kimi Azərbaycanın hələ COP29-a sədrliyindən əvvəl ətraf mühitin qorunması, o cümlədən bərpaolunan enerji mənbələrindən istifadə məsələlərinə daim böyük diqqət göstərdiyini söyləyib.

Söhbət zamanı iqlim dəyişikliyi problemlərinə qarşı mübarizədə parlamentlərin vacib rolu da qeyd edilib. Görüşdə ölkələrimiz arasında əlaqələrin inkişafına mühüm təsir göstərən amillərdən biri kimi parlamentlər arasında qarşılıqlı fəaliyyətin əhəmiyyəti barədə də fikir mübadiləsi aparılıb. Qonağa Azərbaycan Milli Məclisi haqqında məlumat verilib.

Eyni zamanda, gender bərabərliyi və qadın məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb. Sahibə Qafarova deyib ki, ölkəmizdə qadın məsələlərinə xüsusi önəm verilir.

Söhbət zamanı Azərbaycanın Millətlər Birliyi ilə əməkdaşlıq məsələləri, bu təşkilat vasitəsilə kiçik ada dövlətlərinə göstərdiyi humanitar, texniki yardımlar, həmçinin ölkəmizin təşəbbüsü ilə COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammitinin təşkili barədə məlumat verilib.

**XQ**

# Azərbaycan–Rusiya strateji tərəfdaşlıq və müttəfiqlik əlaqələri hərtərəfli inkişaf etdirilir

**Noyabrın 15-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı əsnasında dövlət başçıları Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin bu ilin avqustunda Azərbaycana dövlət səfəri zamanı əldə edilmiş razılaşmaları, həmçinin Rusiyanın Baş naziri Mixail Mişustinin bu günlərdə Bakıya səfəri zamanı təmaslarını nəzərə alaraq, sənaye və nəqliyyat sahələrində qarşılıqlı faydalı layihələrin praktiki olaraq həyata keçirilməsi məsələlərini müzakirə ediblər.

Tərəflər Azərbaycan–Rusiya strateji tərəfdaşlıq və müttəfiqlik əlaqələrinin hərtərəfli inkişafının davam etdirilməsinə dair qarşılıqlı maraqlarını bir daha ifadə ediblər.

Müzakirə olunan məsələlərin icrası məqsədilə müxtəlif səviyyələrdə təmasların davam etdirilməsi razılaşdırılıb.

**Prezidentin Mətbuat Xidmətinin məlumatı**

# Fələstin Dövlətinin Prezidenti Zati-aliləri cənab Mahmud Abbasa

**Hörmətli cənab Prezident!**

Fələstin Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan hər zaman Fələstin xalqının azadlığı və müstəqilliyini dəstəkləmişdir. Ölkəmiz münaqişənin Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla "iki dövlət" prinsipi əsasında sülh yolu ilə həllinin tərəfdarıdır. Biz bundan sonra da BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyi vasitəsilə və ikitərəfli əsasda Fələstinə humanitar dəstək göstərəcəyik.

İnanıram ki, xoş ənənələr üzərində qurulmuş dostluq əlaqələrimiz və əməkdaşlığımız bundan sonra da uğurla inkişaf etməyə davam edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Fələstin xalqına sülh və əmin-amanlıq arzulayıram.

**Hörmətlə,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 14 noyabr 2024-cü il**

# Baş nazirin xarici qonaqlarla görüşləri



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 15-də Ümumdünya Yaşıl İqtisadiyyat Təşkilatının sədri Səid Məhəmməd Əl Tayerlə görüşüb.**

Nazirlər Kabinetindən bildiriblər ki, görüşdə Bakıda keçirilən COP29-un önəmi qeyd edilib, tədbirdə qlobal miqyasda yaşıl keçidin sürətləndirilməsi ilə bağlı vacib qərarların qəbul ediləcəyinə əminlik ifadə olunub.

Ölkəmizdə yaşıl iqtisadiyyatın genişləndirilməsi, ətraf mühitin sağlamlaşdırılması, istixana effekti yaradan qaz emissiyalarının azaldılması, işğaldan azad edilmiş ərazilərdə "netto sıfır emissiya" zonasının yaradılması istiqamətində aparılan işlər, həmçinin bərpaolunan enerji sahəsində həyata keçirilən uğurlu layihələr barədə məlumat verilib.

Söhbət əsnasında yaşıl enerjiyə keçidlə bağlı əməkdaşlıq məsələləri müzakirə olunub.

*

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 14-də BMT-nin İnkişaf Proqramının (UNDP) administratoru Axim Ştaynerlə də görüşüb.**



Görüşdə Bakıda keçirilən COP29-un iqlim dəyişikliyinin təsirlərinin azaldılmasına və yaşıl enerjidən istifadəyə yönəlmiş qlobal təşəbbüslərin təşviqində mühüm rol oynayacağına əminlik ifadə olunub.

Azərbaycanla UNDP arasında uzunmüddətli səmərəli tərəfdaşlıq, o cümlədən Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşması istiqamətində işbirliyi, birgə həyata keçirilən layihələr nəzərdən keçirildi, ikitərəfli əməkdaşlığın gündəliyində duran məsələlər müzakirə edilib.

**XQ**

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# İqlim dəyişmələri və neokolonializm

(əvvəli 1-ci səhifədə)



Prezident İlham Əliyev sammitdəki çıxışına kiçik ada dövlətlərinin səsinin qlobal arenada eşidilməli olduğunu vurğulamaqla başlayıb: “Mən inkişaf etmiş bütün ölkələrə, xüsusən də müstəmləkə keçmişi olan ölkələrə müraciət edirəm ki, kiçik ada dövlətlərinə maddi və texniki dəstək göstərsinlər ki, onlar ölkələrini iqlim dəyişmələrinin fəsadlarından qoruya bilsinlər”.

Məlum olduğu kimi, inkişaf etmiş ölkələrin, demək olar, hamısının müstəmləkə keçmişi var. Onlar indi nə qədər mütərəqqi dəyərlərlə çıxış etsələr də, kübar və nəcib görünmək istəsələr də, həmin keçmiş yaxalarından sanki möhkəm-möhkəm yapışıb. Dövlətimizin başçısı isə onlara, daşımalı olduqları mənəvi iztirabdan çıxış yolunu göstərərək maliyyə dəstəyinin əhəmiyyəti üzərində dayanıb. Təxminən belə: müstəmləkələr hesabına varlananlar “əllərini ciblərinə atmalıdırlar.” Həm də ona görə atmalıdırlar ki, hazırda qlobal iqlim dəyişmələri, eyni zamanda, vaxtilə ekoloji mühitə vurulmuş zərbənin acı nəticəsidir. Zərbə vuranlar ziyanın aradan qaldırılmasına daha səmərəli töhfə verməlidirlər. Bu, sadə məntiqdən irəli gələn ədalətli yanaşmadır.

Ölkəmiz kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirir. “Biz fəlakət qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardım göstərmişik. Biz, həmçinin su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə dəstək vermişik. Ondan çox kiçik ada dövləti Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramımızdan yararlanıb. Qoşulmama Hərəkatında dördillik sədrliyimiz dövründə biz 80-dən artıq ölkəyə, o cümlədən, 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərmişik – deyən Prezident İlham Əliyev həmin ölkələrin üzləşdikləri çağırışların aradan qaldırılmasının COP29-da Azərbaycanın göstərdiyi səylərin əsasını təşkil etdiyini diqqətə çatdırıb. Dövlətimizin başçısı respublikamızın Millətlər Birliyinin kiçik ada dövlətlərindəki birgə layihələrini dəstəkləmək üçün 10 milyon dollar vəsait ayırdığını da vurğulayıb.

Bəli, sözümüzlə əməlimiz eynidir. Söz demək haqqına sahibik. Deməli, Prezident İlham Əliyevin mühüm məsələlərdən biri kimi neokolonializm və iqlim dəyişikləri mövzusunu qaldırmasında məntiqi qanunauyğunluq var. Qanunauyğunluq dövlətimizin başçısının Fransa və Niderlandın, xüsusən Karib dənizi və Sakit Okean regionundakı “dəniz əraziləri”ndəki vəziyyətdən söz açmasında da gözlənilir. Nəzərə alaq ki, bu akvatoriya iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz qalır. Ölkəmizin liderinin bildirdiyi kimi, artan dəniz səviyyəsi, kəskin hava şəraiti və biomüxtəlifliyin pozulması həmin regionlara təhlükə yaradır. Ən pisi isə odur ki, məsələ barədə söz açan icmalar susdurulur.

Neolokolonializm klassik müstəmləkəçilikdən fərqlidir. Birinci ikinci kimi birbaşa zor alətlərinin işə salınması ilə müşayiət olunmur. Hərçənd, artan ziddiyyətlər fonunda zora da üstünlük verildiyi diqqətdən yayınmır. Bu barədə çox söz açılıb və açılacaq. Hələlik isə Prezident İlham Əliyevin, belə demək mümkünsə, alqış məntiqinə diqqət yetirək: “Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Reunion, Qvadelupa, Martinika, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sənt-Maarten, Boneyr, Sent Yefstaxiy və Saba kimi müstəmləkələrinin xalqları – gəlin, həmin ərazidəki xalqları alqışlayaq, – bu gün XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkirlər. Hazırda Fransa Polineziyası və Yeni Kaledoniya 1946–1947-ci illərdə BMT tərəfindən qeyri-özünü idarə edən ərazilər kimi tanınırlar. Bununla belə, onların dekolonizasiya prosesi hələ də yubanır”.

Dövlətimizin başçısı çox vacib məqama diqqət yetirir. Fransa və Niderland kimi dövlətlər keçmişdə ilişib qalıblar. Onlar müstəmləkəçilikdən uzaq durmaq istəmirlər. Nəinki bu niyyətlərindən əl çəkmək fikrində deyillər, eyni zamanda, Avropa İttifaqının Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozep Borrellin ölkəmizin liderinin bildirdiklərinə reaksiyasından görünür ki, neokolonializmin ən yüksək səviyyəli müdafiəsi təşkil olunmaqdadır. Borrelin nələri dediyinə sonda diqqət yetirəcəyik. İndilik Prezident İlham Əliyevin digər fikirlərinə, daha doğrusu, açıqladığı faktlara nəzər salaq. Dövlətimizin başçısı bildirib ki, 1966–1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib: “Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib. Əgər buna Fransanın Əlcəzairdə illər boyu işğalı zamanı həyata keçirdiyi 17 nüvə sınağını əlavə etsək, biz həmin ölkə tərəfindən planetin ekosisteminə hansı zərərin vurulduğunu görərik. Fransanın “dəniz əraziləri”ndə törətdiyi cinayətlər siyahısı rejimin bu yaxınlarda insan hüquqları pozulmalarını qeyd etməsək, tam olmazdı. Prezident Makronun rejimi Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoymuş, 169 nəfəri yaralamışdır. 1700 insan həbs edilmişdir. Həmçinin bu il Martinika və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs olunub. Bütün bunlarla yanaşı, Fransa nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də ki, Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi. Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat – Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Fransadakı bütün siyası məhbuslar dərhal azad olunmalıdır”.

*

Prezident İlham Əliyevin açıqladığı faktlar dünyanı ciddi şəkildə düşündürməlidir. Nə dərəcədə düşündürür, bu barədə qəti söz demək mümkünsüzdür. Çünki neokolonializmin ən böyük daşıyıcısı olan Fransa öz ampluasındadır. Dünyanın aparıcı ölkələri ona “Dur!” demirlər. Kiçik ada dövlətlərinin sammitində çıxış edən BMT-nin Baş katibi Antonio Quterreş müasir dövrdə müstəmləkəçilik siyasəti həyata keçirənlərə münasibətdə ünvanlı sərt mövqe ortaya qoymadı. Amma onun, ümumən, müzakirə edilən məsələ ilə həmrəy olduğunu açıq şəkildə bildirməsi indilik yetərli sayıla bilər.

Cənab Quterreş ümumi şəkildə inkişaf etməkdə olan kiçik ada dövlətlərinin böyük ədalətsizliklərlə üzləşdiklərini, iqlim dəyişmələrinin, artan qiymətlərin, COVID-19 pandemiyasının bu ölkələrə ciddi ziyan vurduğunu, onların hökumətlərinin çətin vəziyyətdə olduqlarını vurğulayaraq deyib: “Siz – kiçik ada dövlətləri nümayiş etdirirsiniz ki, iqlim ambisiyaları özünü necə büruzə verir. Siz cavab tədbirlərini görən ilk tərəfsiniz. Dünya sizi dəstəkləməli, ilk növbədə, temperatur artımının 1,5 dərəcədə saxlanılması üçün yorulmadan çalışmalıdır. Bu, o deməkdir ki, 2030-cu ilə qədər qlobal atılmalar illik əsasla 9 faiz azalacaq. Həmçinin ənənəvi yanacaqdan istifadə sürətlə və ədalətli şəkildə azalacaq, COP28-in nəticəsi təmin ediləcək. Bu, həmçinin o deməkdir ki, hər ölkə 1,5 dərəcəyə uyğun olması üçün COP30-a qədər yeni, iqtisadiyyatı əhatə edən milli iqlim fəaliyyəti planlarını və ya milli səviyyədə müəyyən edilmiş töhfələr sənədini təqdim edəcək”.

BMT-nin Baş katibinin diqqətə çatdırdığı faktlar son dərəcə vacibdir. Onun bildirdikləri ilə Prezident İlham Əliyevin mövzu barədə açıqladığı məsələləri bir araya gətirsək, belə nəticə hasil olur ki, Bakıda Fransa və Niderlandın timsalında müstəmləkə siyasəti ilə dünya iqlimini korlayanlara qarşı vahid müqavimət koalisiyası yaranıb. Müstəmləkəçilik iqlim dəyişmələrinə səbəb faktor kimi ön plana çəkilib ki, bu da birbaşa Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin xidmətidir.

Ölkəmiz COP29 məsələsində kiçik ada dövlətlərində iqlim dəyişmələri və müstəmləkəçilik məsələlərini qabartmaqla, böyük bəşəri missiyanı yerinə yetirir. A.Quterreş isə bu missiyanın real mahiyyəti baxımından daha bir vacib nüansı qabardır. Söhbət COP29-da dünya səviyyəli maliyyə arxitekturasının yaradılması istiqamətində mühüm addımların atılmasından gedir. “İş burada və indi başlayır. Bizə inkişaf etməkdə olan ölkələrin ehtiyac duyduğu trilyonlarla dollarlıq vəsaitləri toplayan yeni iqlim maliyyə məqsədi lazımdır və imtiyazlı dövlət vəsaitlərində xeyli artım olmalıdır”– deyən Baş katib əlavə edib ki, mövcud sahədə uğur qazanmaq üçün fəaliyyətin daha da gücləndirilməsi zəruridir: “Bu, COP çərçivəsində və ondan sonrakı dövrdə sizi öz səlahiyyətlərinizdən istifadə etməyə çağırıram. Ədaləti tələb edin. Çünki yubanmaq olmaz!”.

*

Bəli, iqlim dəyişmələrinin təsirlərini aradan qaldırmaq istiqamətində məqsədyönlü fəaliyyətin gerçəkləşməsində bir an belə yubanmaq olmaz. Mövcud məqamı Millətlər Birliyi Təşkilatının baş katibi P.Skotlend də vurğulayıb. 56 üzvündən 25-nin inkişaf etməkdə olan ada dövləti olduğunu və onların çox gözəl potensialının mövcudluğunu qeyd edən xanım Skotlend bildirib: “Onlar böyük çağırışlarla üzləşir. Onlar iqlim dəyişmələrinin intensivləşməsinə yüksək dərəcədə həssasdırlar. Bu, fiziki baxımdan daha az ərazi deməkdir. Bununla belə qlobal maliyyə qaydaları onların işini daha da çətinləşdirir. Bütün bunlar onların müqavimət gücünü zəiflədir. Bu səbəbdən kiçik ada dövlətlərinə verilən prioritet birlik proqramımızın əsasını və beynəlxalq sistemdə fəaliyyətimizin özəyini təşkil edir”.

P.Skotlend COP29 çərçivəsində kiçik ada dövlətləri ilə bağlı xüsusi tədbirin təşkilinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirərək, Azərbaycanın qaldırdığı son dərəcə mühüm təşəbbüsə də toxunub: “COP29-a sədrlik edən tərəfin elan etdiyi iqlim maliyyələşməsinə dair fondun yaradılması təşəbbüsü mənə böyük təəssürat bağışladı. Resursların açılmasını və paylanmasını təmin etmək üçün icra mexanizmlərinin işlənilməsinə dəstək verməyə hazırıq. Mən bu təklifi ona görə verirəm ki, üzv dövlətlərimiz təcili şəkildə iqlim maliyyəsi ilə bağlı vədlərə ehtiyac duyur. Onlar buna Yaşıl İqlim Fondu, İtki və Zərərlər Fondu xətti ilə nail ola bilər”.

*

İndi isə anons etdiyimiz kimi, C.Borrellin bildirdiklərindən söz açaq. Borrel “X” sosial şəbəkəsindəki hesabında, öz aləmində Azərbaycan Prezidentini tənqid edib, ölkəmizin liderinin Fransa və Niderland əleyhinə bəyanatlarından dərin təəssüf hissi keçirdiyini yazıb. “Bu qəbuledilməz bəyanatlar konfransın həyati iqlim məqsədlərinə və Azərbaycanın COP29-da sədrliyinin etibarına xələl gətirmək riski daşıyır” kimi fikirlər bölüşən Borrellin həyasızlığı sərhəd tanımır. Əvvəla, sual olunur: Nəyə görə Borrell və onun təmsil olunduğu qurum həyati iqlim məqsədlərinə həssas yanaşmır? Əgər məqsəd iqlimdirsə, hansı səbəbdən Fransa və Niderland COP29-da iştirak etmirlər? Görəsən, COP məsələsində ölkəmizə qarşı hədyanlar yağdırmaq, qarayaxma kampaniyası təşkil etmək çoxmu vacibdir? Bəlkə bu kimi hallar iqlim mövzusuna uyğundur?! Digər tərəfdən, Azərbaycan COP29–la əlaqədar hər iki ölkənin müstəmləkəçilik fəaliyyətini qabartmaqla heç də mövzudan yayınmır və bunu təkcə Prezident İlham Əliyevin deyil, eyni zamanda, kiçik ada dövlətlərinin sammitində çıxış edən digər liderlərin də fikirləri təsdiqləyir.

Söhbət Borrelldən düşmüşkən, Prezident İlham Əliyevin sözügedən Sammitdə səsləndirdiyi bir fikri də diqqətə çatdırmağı vacib sayırıq. “Əgər Avropanın əsas diplomatı Cozep Borrell Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəlliyiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın!”.

Onu da bildirək ki, dövlətimizin başçısının Borrellə bağlı səsləndirdiyi fikirlər onun sammitdən sonrakı sərsəmləmələrinə də cavabdır. Həqiqətən, Avropa üzrə mühüm diplomatik missiya yerinə yetirən şəxs, yəni C.Borrell tutduğu posta daban-dabana zidd, müəyyən mənada, irqçi mahiyyət daşıyan mövqe bildirirsə, deməli, əvvəldə də dediyimiz kimi, bu şəxsin işi-gücü müstəmləkəçiliyə leqal obraz qazandırmaqdır. Halbuki, beləsinin danışmağa haqqı olmamalıdır. Eləcə də neokolonializmi dövlət siyasətinə çevirənlərin də.

Elə isə Prezident İlham Əliyevin COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitində dilə gətirdiyi və ölkəmizin tutduğu yoldan dönməyəcəyini, borrellərə, makronlara və digərlərinə qarşı mübarizədə qətiyyətli davranacağını növbəti dəfə təsdiqləyən bir fikri ilə yazımızı tamamlayaq: “Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi onları dəstəkləyəcək və gələcəkdə dostlarımızı dəstəkləməkdə davam edəcək”.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Böyük Britaniya Azərbaycanla “yaşıl” enerji əməkdaşlığı qurur

**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında dövlət və hökumət başçıları –prezidentlər, baş nazirlər, nazirlər və dünyanın əksər siyasi qurumlarının yüksək səviyyəli nümayəndələri iştirak edirlər. Onlar iqlim dəyişikliyi ilə mübarizə üzrə yeni maliyyə hədəflərinin müəyyənləşdirilməsi və yaşıl enerji, dayanıqlı inkişaf kimi sahələrdə əməkdaşlığın genişləndirilməsini müzakirə edirlər.**



Tədbirin iştirakşıları arasında Böyük Britaniyanın Baş naziri Key Starmer və 6 nazir də var. Bu, Londonun Bakı ilə əməkdaşlığa önəm verdiyini, əlaqələrin inkişafında maraqlı olduğunu göstərir. Onu da qeyd edək ki, Böyük Britaniya Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyan ölkələrdən biri olub. 44 günlük Vətən müharibəsi dövründə də obyektiv münasibət sərgiləyib. BMT Təhlükəsizlik Şurasında döyüşlərin dayandırılmasını tələb edən qətnamənin qəbuluna London mane olub.

Böyük Britaniyanın yüksəksəviyyəli nümayəndə heyətləri də dəfələrlə Azərbaycanda səfərdə olublar. Bu səfərlər Azərbaycan ilə Birləşmiş Krallıq arasında siyasi və iqtisadi münasibətlərə də müsbət təsirini göstərib. Son 30 ildə Böyük Britaniya Azərbaycan iqtisadiyyatına 85 milyard dollar sərmayə qoyub. İki ölkə arasında illik ticarət dövriyyəsi isə 1,4 milyard funt–sterlinqdən (1,814 milyard ABŞ dolları) çoxdur.

İqtisadi əməkdaşlıq həm də yaşıl iqtisadiyyat, bərpaolunan enerji, xüsusilə yaşıl hidrogen istehsalı, həmçinin enerji səmərəliliyi, elektrik şəbəkələrinin gücləndirilməsi sahələrini əhatə edir. Artıq Böyük Britaniya hökuməti və özəl şirkətlər azad edilmiş ərazilərdə minaların təmizlənməsi, planlaşdırılması və yeni şəhər aqlomerasiyalarının tikintisi ilə məşğuldurlar. "bp" şirkət tərəfindən (“Şəfəq” layihəsi) Cəbrayıl rayonunda 240 MVt gücündə günəş elektrik stansiyası tikiləcək. “Virtual Enerji Ötürmə Mexanizmi” adlanan yeni kommersiya modelindən ilk dəfə istifadə olunacağı gözlənilir. Həyata keçəcəyi təqdirdə, bu mexanizm layihənin Cəbrayıl rayonunda istehsal edəcəyi günəş enerjisinin ölkənin elektrik enerjisi şəbəkəsinin operatoru olan “Azərenerji”yə həmin yerdə çatdırılmasını, “Azərenerji”-nin isə sonra eyni həcmdə elektrik enerjisini Səngəçal terminalına verməsini təmin edəcək. Bu da öz növbəsində terminalın həmin bərpa olunan elektrik enerjisindən öz ehtiyacı üçün istifadə etməsinə imkan verəcək. Bu layihə bölgənin “yaşıl enerji zonası” kimi inkişafına töhfə verəcək. Həmçinin “Fortescue Future Industries” (FFI) şirkəti Energetika Nazirliyinin yaşıl enerji və hidrogen üzrə 12 QVt-dək güclərinin yaradılmasına dair əməkdaşlığa maraq göstərir. Böyük Britaniya Azərbaycanla külək enerjisi, yaşıl maliyyə və tullantıların idarəolunması üzrə əməkdaşlıqda da maraqlıdır.

Bu əməkdaşlıqdan danışarkən, elektrik taksilərini də unutmaq olmaz. Son bir neçə ildə Azərbaycan Britaniyanın LEVC şirkətindən 252 elektrik taksi alıb. Bunun 150-si COP 29 konfransı ərəfəsində alınıb. Bu, elektrik taksilər COP 29 tədbirinin iştirakçılarına xidmət edir. Onlar ekoloji cəhətdən çox sərfəli olub ənənəvi benzin və dizel mühərrikləri ilə müqayisədə karbon qazı emissiyalarını əhəmiyyətli dərəcədə azaldır. Bu, iqlim dəyişikliyi ilə mübarizə baxımından vacibdir. Belə taksilərinin istifadəsi, şəhərlərdə hava çirkliliyini azaltmağa kömək edir. Bu, xüsusilə urbanizasiya prosesinin sürətləndiyi bölgələrdə əhəmiyyətlidir. Bakı da urbanizasiya prosesinin sürətləndiyi şəhərlərdən biridir.

Bundan başqa, elektrik mühərrikli taksilər daha az səs-küy yaradırlar. Bu, Bakı mühitində daha sakit və rahat bir atmosfer yaradır. Onların elektrik enerjisi ilə işləməsi yanacaq xərclərini əhəmiyyətli dərəcədə azaldır, enerji istehsalında daha səmərəli yanaşmaların tətbiqinə və bərpa olunan enerji mənbələrinin inteqrasiyasına imkan yaradır.

Ümumiyyətlə, COP29 zamanı Azərbaycanda elektrik mühərrikli taksi nəqliyyatının istifadəsi ekoloji, iqtisadi, sosial və texnoloji cəhətdən bir çox müsbət təsirlərə malikdir. Bu təşəbbüs ölkənin iqlim siyasətinin gücləndirilməsi, ekoloji tarazlığın qorunması və sosial inkişafın dəstəklənməsi baxımından əhəmiyyətli addımdır. Elektrikli taksilərdən istifadənin genişləndirilməsi gələcəkdə daha dayanıqlı və ekoloji cəhətdən dost nəqliyyat sisteminin yaradılması üçün əsas rol oynaya bilər.

P.S Hazırda Azərbaycanda 450-dən çox Britaniya şirkəti fəaliyyət göstərir ki, onlardan da təxminən 50-si “təmiz enerji” sektorundadır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# PAXILLIQ

(əvvəli 1-ci səhifədə)

Siyasi korrupsiyanın simvoluna çevrilmiş Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası (AŞPA) günahsız insanların qətlinə görə Makron hökuməti ilə eyni məsuliyyəti bölüşürlər. Azərbaycan liderinin Avro İttifaqının xarici siyasət qurumunun rəhbərinin irqçi dünyagörüşünü dünyaya xatırlatması isə kiçik ada dövlətlərinin sammitdə iştirak edən nümayəndələrinin alqışları ilə müşayiət olundu: "Avropa İttifaqının baş diplomatı Cosep Borrell Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, Avropa Parlamentindən və AŞPA-dan başqa nə gözləmək olar?! Əgər biz cəngəllikiksə, o zaman bizdən uzaq durun və işimizə qarışmayın".

* * *

Artıq Avropadan Azərbaycan Prezidentinin kəskin çıxışına reaksiyalar eşidilməkdədir. "Prezident Əliyevin Fransa və Avropaya qarşı bəyanatları qəbuledilməzdir". Bunu Fransanın ekoloji keçid naziri Agnes Pannier-Runaçer parlamentdə çıxışı zamanı deyib. "Ölkəmizə, onun qurumlarına və ərazilərinə (?) birbaşa hücumlara haqq qazandırmaq mümkün deyil. Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədən öz maraqları üçün istifadə edir ki, bu da məqbul sayılmır. Həmin hücumlar BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının davranış kodeksinin açıq şəkildə pozulmasıdır. Bu, cavabsız qalmayacaq". Siyasi hikkəsini və yersiz hiddətini bu şəkildə büruzə verən nazir gələn həftə Bakıya planlaşdırılan səfərdən imtina etmək qərarına gəldiyini bildirib.

Növbəti reaksiya Azərbaycan Prezidentinin çıxışında adını çəkdiyi Aİ-nin baş diplomatından gəldi. Cozep Borrell ona ünvanlanan iradları diqqətdən kənarda qoymayıb, onlara özünə xas "diplomatik tərzdə" cavab vermək qərarına gəlib: "Prezident İlham Əliyevin Aİ, Fransa və Niderlanda qarşı ittihamları son dərəcə təəssüf doğurur. Bu qəbuledilməz bəyanatlar iqlim dəyişikliyi konfransının əsas məqsədlərini və Azərbaycanın COP29-da sədrliyinin etibarını sarsıtmaq riski daşıyır. Biz Fransa və Niderlandı dəstəkləyirik".

C.Borrellin ermənilərə sevgisi bizə çoxdan məlumdur. Onun rəsmi Parisin tapşırığı ilə İrəvana səfərləri, Ermənistanın Azərbaycanla sərhədinə yerləşdirdikləri Aİ-nin adı mülki missiya, əslində, kəşfiyyatçı emissarları ilə görüşləri və həmin görüşlərdən sonra ölkəmizə qarşı təxribatçı bəyanatları barədə yazmışıq. Aİ-nin baş diplomatı indi də eyni ampluadan çıxış edir.

Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev özünün "X" səhifəsində digər məsələlərlə yanaşı, Aİ-nin xarici siyasət xidmətinin ismarıclarına, bütövlükdə, bu qurumun COP29-a ikili standartlara söykənən mövqeyinə münasibət bildirib: "Oxşar şəkildə, Aİ üzvü olan bəzi ölkələrin liderləri digər dövlətləri COP29-da iştirakdan çəkindirmək üçün öz diplomatik şəbəkələrindən istifadə ediblər. Bu yolla siz COP prosesinə inamı sarsıtmağa çalışdınız. Amma göstərdiyiniz bütün cəhdlər boşa çıxdı".

Bəli, Azərbaycana qarşı onun opponentlərinin çoxsaylı və çeşidli qarayaxma kampaniyası, qara piarı tam fiaskoya uğradı və COP29-a gəlmiş iştirakçıların sayı və coğrafiyası "düşmən bağrı çatladır". İndi maraq doğuran məqam ondan ibarətdir ki, həmin anti–Azərbaycan qaragüruhu "hücum taktikası"ndan müdafiə formasına keçməyə məcbur olub. Parisdən və Brüsseldən verilən reaksiyalar məhz bunun isbatıdır.




* * *

Bundan sonra avropalıların adından danışan "kollektiv Qərb" Bakıdan aldıqları dərsi yaxşı öyrənməli, yüksək tribunalardan başqa ölkələri təhqir etmək vərdişlərini unutmalıdırlar. Çünki bütün müstəvilərdə mövqeləri laxlamış siyasilərin daha bunu etməyə haqları yoxdur. Aydın məsələdir ki, həmin qaragüruh Bakıda qurulmuş planetar tribunadan ünvanlarına belə kəskin tənqidi gözləmirdi.

**Mövzu ilə bağlı XQ-yə açıqlamasında Milli Məclisin üzvü, politoloq Rasim Musabəyov** Avropanın məlum dairələrindən Azərbaycana qarşı başladılan gözdənsalma kampaniyasını ağılsızlıq adlandırdı: "Orda nə danışmalarından, nə yazmalarından asılı olmayaraq Azərbaycan beynəlxalq nüfuzunu və gücünü bir daha nümayiş etdirdi. Ermənipərəst qüvvələrin yazdıqlarını planetin sıfır tam yüzdə bir faizi belə oxumayıb. Amma dünyanın nüfuzlu telekanallarında yayımlanan reportajlarda tamaşaçıların seyr etdiyi mənzərədə Bakı Avropanın müasir, zəngin şəhəri kimi təsvir edilir. Azərbaycan paytaxtına gələn insanlar bütün bunları öz gözləri ilə görürlər. Mən COP29-un nümayəndələrini nəzərdə tuturam. Təbii ki, həmin qonaqlar uzaq Qərbdə kiminsə nəsə danışdığına, yazdığına deyil, gözləri ilə gördüklərinə inanırlar. Düşünürəm ki, o qüvvələr öz fəaliyyətlərini davam etdirəcəklər. Amma Azərbaycan artıq bu cür təmayüllərə qarşı mübarizə aparmağın yolunu və üsulunu bilir. Cənab Prezidentin COP tribunasından onların ünvanına söylədikləri bunun ən bariz nümunəsidir. Biz oxşar qarayaxma kampaniyalarını "Evrovision"u, I Avropa Oyunlarını keçirəndə görmüşük və onlara qarşı immunetitimiz kifayət qədər güclüdür. Faydası və ağılsız işlərlə məşğuldurlar. Necə deyərlər, onlar öz əməllərindən əl çəkməsinlər, biz də öz işimizi görəcəyik".



BMT-nin Bakıda keçirilən İqlim Sammitinin 5 günlük gərgin işi öz bəhrələrini verməkdədir. COP29-da iştirak edən ekspertlər, eləcə də burada peşə fəaliyyətini həyata keçirən jurnalistlər əldə olunmuş ilk razılaşmalardan məmnunluqla danışırlar. Sammit iştirakçıları xüsusilə qlobal yaşıl gündəliyin mühüm vəzifələrini, BMT-nin məqsədlərinə nail olmaq üçün atılan addımları, qlobal temperatur artımını məhdudlaşdırmaq üçün Paris Sazişində təsbit olunmuş iqlim öhdəliklərinə sadiqliyi fəal nümayiş etdirərək problemdən birgə çıxış yollarını müzakirə ediblər.

Amerikalı analitik, enerji, geosiyasət və təhlükəsizlik sahəsində ekspert, "The Washington Outsider" qəzetinin baş redaktoru İrina Zukerman yerli mediaya verdiyi açıqlamasında qeyd edib ki, COP29 əvvəlki konfranslardan yaxşılığa doğru fərqlənir: "Bu fərq, ilk növbədə, iqlim layihələrinin maliyyələşdirilməsinin müzakirəsi ilə bağlıdır. COP29-da artıq 100 milyard dollar məbləğində iqlim dəyişikliyi proqramları üçün maliyyələşmə barədə razılığa gəlinib. Biz dünya ölkələrinin qəbul etmək niyyətində olduqları konkret maliyyələşdirmədən danışırıq. Yəni, bu, olduqca yaxşı haldır ki, müxtəlif qitələri təmsil edən ölkələrin, eləcə də beynəlxalq ictimaiyyət bu məsələlərə bir neçə il əvvəlkindən fərqli olaraq, çox ciddi yanaşır. Bununla belə, bir daha qeyd etmək istəyirəm, əsas odur ki, maliyyələşmə prosesi başa çatsın. Çünki ABŞ-nin Afrikada iqlim layihələrinə geniş miqyaslı sponsorluq etdiyi kimi presedentlər var. Amma bu pullar Afrika banklarında heç vaxt görünməyib. Burada çox mühüm cəhət irəli sürülən layihələrin həyata keçirilməsi üçün lazımi infrastrukturun yaradılması və ixtisaslı mütəxəssislərin hazırlanmasıdır".

* * *

Hesab edirik ki, amerikalı həmkarımız bu məsələdə tamamilə haqlıdır. Bəli, ekoloji proqramları həyata keçirmək üçün məhz peşəkar kadrların olmaması ucbatından faydalı təşəbbüslər uğursuzluğa düçar olur. "Bayden Administrasiyası dövründə müxtəlif iqlim təşəbbüslərini reallaşdırmaq üçün böyük büdcə ayrıldı. Amma sonra məlum oldu ki, söhbət təkcə maliyyə vəsaitindən getmir. Əsas amil peşəkar resursların çatışmazlığı, layihələri həyata keçirmək üçün kifayət qədər səlahiyyəti olmayan icmaların, əyalət rəhbərliyinin və bələdiyyələrin hazırlığıdır. Nəticədə pul, faktiki olaraq boşuna xərcləndi", – deyə Zukerman bildirdi.

Belaruslu politoloq və ekoloq Sergey Tomitsin fikrincə, COP29-un uğurları artıq göz qabağındadır: "Əldə olunan nəticələr ətraf mühitin qorunması üçün səylərə düzəlişlər edəcək. Mənə elə gəlir ki, çox sayda ölkədən olan iştirakçılar arasında mühüm konsensus əldə olunub. Əgər əvvəlki sammitlərdə ciddi fikir ayrılığı var idisə, indi, məsələn, dünya Afrika ölkələrinin səsini aydın eşidir. Yaxın Şərq, Asiya dövlətlərinin iqlim innovasiyaları sahəsində işlərin necə aparılacağına dair özlərinin nöqteyi-nəzəri var".

Bakıda başqa bir şeyi də müşahidə etdiklərini deyən S.Tomits bu barədə fikirlərini bölüşdü: "Görürdük ki, paxıl insanlar, Azərbaycanın iqlim təşəbbüslərinə və onun beynəlxalq nüfuzuna qarşı çıxanlar sammiti boykot etməyə çalışaraq qara piarla məşğul olurlar. Düşünürəm ki, bu, özlüyündə absurd və ağılsız hərəkətdir. İntəhası, şükürlər olsun ki, biz bu cəhdlərdən heç nə alınmadığını, onların uğursuzluğa düçar olduğunu da görürük. Yeri gəmişkən, Azərbaycan Prezidenti İlham Əliyev COP29-dakı çıxışında bu məqamlara toxundu".

Beləliklə, dünya BMT-nin Bakı Sammitdən maraqla yeni nəticələr gözləyir. Artıq ilkin nəticələr əldə olunub. Amma Azərbaycan paytaxtından dünyanı təəccübləndirəcək yeni və daha böyük uğurların ismarıclarının veriləcəyinə əminik.

*İmran BƏDİRXANLI*
*XQ*

# Mina terroru ekologiyaya ciddi ziyan vurur, biomüxtəlifliyi məhv edir

(əvvəli 1-ci səhifədə)

Buna baxmayaraq, işğaldan azad edilmiş ərazilərə əhalinin qayıdışını, infrastruktur quruculuğunu çətinləşdirən bir problem hələ də qalmaqdadır və çox təəssüf ki, məsələ hələ uzun illər öz aktuallığını saxlayacaq. Bu da ərazilərimizin minalarla çirkləndirilməsi məsələsidir. Sonuncu dəfə mina partlayışı hadisəsi noyabrın 10-da baş verib. Həmin gün Goranboy rayonunun Gülüstan kəndi ərazisində Azərbaycan Ordusunun hərbi qulluqçusu Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən əvvəlcədən basdırılmış piyada əleyhinə minaya düşərək xəsarət alıb. Müdafiə Nazirliyindən bildirilib ki, minaya düşərək xəsarət alan hərbi qulluqçu İbrahimov Qədim Xaliq oğludur.

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" platformasındakı paylaşımında bildirib ki, 2020-ci il noyabrın 10-dan 2024-cü il noyabrın 11-dək 382 Azərbaycan vətəndaşı Ermənistanın hərbi işğal dövründə basdırdığı minaların qurbanı olub. O, mina qurbanlarının sayının artdığını, Azərbaycanın Ermənistanın 30 illik işğalının nəticələrindən əziyyət çəkdiyini qeyd edib.

Paylaşıma əlavə edilmiş məlumata əsasən, 2020-ci il noyabrın 10-dan sonra 70 nəfər mina partlayışı nəticəsində həlak olub, 312 nəfər xəsarət alıb. Həlak olanlardan 55-i, xəsarət alanlardan 143-ü mülki şəxslərdir. Hərbi əməliyyatların dayandırılmasını nəzərdə tutan üçtərəfli bəyanatın imzalanmasından sonra mina partlayışı nəticəsində 15 hərbi qulluqçu həlak olub, 169-u xəsarət alıb. Qeyd edilib ki, 1991-ci ildən bəri Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən 3400-dən çox mina qurbanı qeydə alınıb. Onlardan 359-u uşaq, 38-i qadın olub.

Bu arada işğaldan azad edilmiş ərazilərdə ANAMA tərəfindən icra olunan əməliyyatlar barədə açıqlanan həftəlik (04.11.2024–10.11.2024) məlumatda bildirilib ki, Tərtər, Ağdam, Ağdərə, Laçın, Füzuli, Şuşa, Xocalı, Xankəndi, Kəlbəcər, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilanda 51 piyada əleyhinə mina, 33 tank əleyhinə mina, 185 partlamamış hərbi sursat (PHS) aşkarlanıb. Bildirilib ki, 545,3 hektar ərazi mina və PHS-lərdən təmizlənib.

İşğaldan azad edilmiş ərazilərdə mina və PHS probleminin mövcudluğu Beynəlxalq Ədalət Məhkəməsinin (BƏM) Azərbaycanın Ermənistana qarşı davam edən beynəlxalq hüquqi iddiaları üzrə qəbul etdiyi qərarda da öz əksini tapıb. Məhkəmə İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı iş üzrə noyabrın 12-də çıxardığı qərarda azərbaycanlılara qarşı törədilən kütləvi insan hüquqları pozuntularını qeydə alıb. Xarici İşlər Nazirliyinin bununla bağlı yaydığı məlumatda bildirilir ki, Azərbaycan onilliklər ərzində bir milyondan çox azərbaycanlıya qarşı sistemli şəkildə etnik təmizləmə həyata keçirdiyinə görə Ermənistanı məsuliyyətə cəlb etmək istiqamətində fəaliyyət göstərib. Beləliklə, bu səylər nəticəsiz qalmayıb: Ermənistanın onilliklər boyunca Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisini işğalda saxladığı müddətdə həyata keçirdiyi etnik təmizləmə və digər qeyri-qanuni əməllər bundan sonra məhkəmə tərəfindən mahiyyəti üzrə ətraflı şəkildə araşdırılacaq. Bundan əlavə, BƏM, haqlı olaraq, Ermənistanın mina və gizli mina tələləri yerləşdirməsi təcrübəsinə dair iddiaların qərarda istisna olunması cəhdlərini rədd edib. XİN bildirir ki, Ermənistanın mina təhdidi nəticəsində sayının indiyədək faciəvi şəkildə artdığı qurbanlar üçün ədalətin təmin edilməsi müstəsna əhəmiyyət kəsb edir. Son olaraq, 2024-cü il noyabrın 10-da daha bir Azərbaycan vətəndaşı mina partlayışı nəticəsində xəsarət alıb. Qeyd edilib ki, yaşayış ərazilərinin minalarla hədəfə alınması günahsız mülki insanların həyatını təhlükəyə atmaqla yanaşı, həmçinin Azərbaycanın əldə olunmasına sadiq qaldığı sülh sazişini təhdid altında qoyur.



Üzləşdiyimiz problemin ciddiliyi onun BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) da müzakirə edilməsinə səbəb olub. Noyabrın 15-də COP29 konfransı çərçivəsində "Cığırın təmizlənməsi: İqlim dayanıqlılığı və dayanıqlı inkişaf üçün mina təhlükəsi ilə mübarizə" adlı tədbir keçirilib. BMT-nin İnkişaf Proqramı və ANAMA-nın birgə təşkilatçılığı ilə təşkil olunan tədbirdə ANAMA İdarə Heyətinin sədri Vüqar Süleymanov, BMT Baş katibinin köməkçisi, BMT İnkişaf Proqramının Administratorunun müavini, Avropa və Müstəqil Dövlətlər Birliyi üzrə regional bürosunun direktoru İvana Jivkoviç iştirak ediblər. İştirakçılar Azərbaycanın işğaldan azad edilmiş ərazilərində işğal zamanı basdırılmış minaların və PHS-lərin dayanıqlı iqlim və davamlı inkişafa göstərdiyi mənfi təsirlər barədə fikirlərini bölüşüblər.

V.Süleymanov bildirib ki, işğaldan azad edilmiş ərazilərdə işğal dövründə basdırılmış təxminən 1,5 milyon mina ekologiyaya ciddi ziyan vurub. Onun sözlərinə görə, minalar və PHS-lər torpağın bir zamanlar zəngin olan biomüxtəlifliyini məhv edərək, münbit torpaqları çirkləndirib, kənd təsərrüfatı məhsuldarlığını azaldıb.

ANAMA rəhbəri qeyd edib ki, minatəmizləmə təkcə təhlükəsizlik məsələsi deyil, həmçinin iqlim dayanıqlığı və inkişaf məsələsidir. Minalarla çirklənmiş ərazilərin 170 min hektardan çox hissəsi təmizləndikcə, ekoloji bərpa, biomüxtəlifliyin yenilənməsi və dayanıqlı kənd təsərrüfatı üçün yol açılır. Təmizlənmiş sahələr infrastrukturun yenidən qurulmasına və məcburi köçkünlərin geri qayıdışına dəstək verir. Bu investisiyanın miqyasına baxmayaraq, beynəlxalq töhfələr ümumi maliyyələşdirmənin cəmi 4,4 faizini təşkil edir. Ölkəmizdə minaların tam təmizlənməsini təmin etmək və bu təhlükələrin geniş əhatəli ekoloji təsirlərini aradan qaldırmaq üçün qlobal dəstəyin artırılması olduqca vacibdir.

Bundan bir gün öncə isə BMT Baş katibinin köməkçisi, BMT İnkişaf Proqramının Avropa və MDB üzrə regional bürosunun direktoru İvana Jivkoviç Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov və ANAMA İdarə Heyətinin sədri Vüqar Süleymanovla görüşü barədə sosial şəbəkə hesabında məlumat yerləşdirmişdi.

Eyni zamanda, ANAMA rəhbəri ilə görüşdən bəhs edən Jivkoviç Azərbaycanda və dünyada daha təhlükəsiz, minasız gələcək üçün mina əleyhinə fəaliyyətlə bağlı innovasiyaları müzakirə etdiklərini bildirib.

Ölkəmizin işğaldan azad olunmuş ərazilərindəki mina təhdidi ilə mübarizə səyləri Xarici işlər naziri Ceyhun Bayramovun da BMT rəsmisi ilə görüşündə ətraflı müzakirə edilən məsələlərdən olub. Göründüyü kimi, Azərbaycan işğaldan azad edilmiş ərazilərə qayıdışı çətinləşdirən bu problemin ciddiliyini hər fürsətdə qaldırır. Problemin beynəlxalq aləmdə müzakirə predmetinə çevrilməsinə çalışır. Ölkəmiz işğal altındakı torpaqlarını özü azad etdiyi kimi, mina təhlükəsinə qarşı da, demək olar ki, təkbaşına mübarizə aparır. Beynəlxalq ictimaiyyət bu məsələdə Azərbaycana lazımınca dəstək vermir.

**"Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin sədri, ANAMA yanında İctimai Şuranın katibi Hafiz Səfixanov** XQ-yə açıqlamasında bildirdi ki, Azərbaycan bu gün dünyada minalar və müharibənin partlayıcı qalıqları ilə əraziləri ən çox çirklənmiş ölkələrdən biridir. Ölkəmiz Ermənistanın hərbi işğalı nəticəsində və keçmiş SSRİ-nin Azərbaycanda yerləşmiş hərbi hissələrinin, həmçinin anbarlarının arzuolunmaz "mirası" ilə



üz-üzədir. Onun sözlərinə görə, Vətən müharibəsi nəticəsində ərazilərimiz işğaldan azad edildikdən sonra problemin nə qədər böyük olduğu bir daha aydın oldu: "Müharibə başa çatdıqdan sonra məlum oldu ki, Azərbaycanın 12 faizdən artıq ərazisi minalarla çirkləndirilib. Azərbaycan ərazisində 1,5 milyon mina olmaqla dünyanın minalarla ən çox çirklənmiş ilk 5 ölkəsi sırasındadır. İşğaldan azad edilmiş 1 milyon 166 min 702 hektar ərazidə minaların olduğu güman edilir, bunun da 211 min 800 hektarı yüksək və 954 min 902 hektarı orta və aşağı çirklənmə səviyyəsindədir. Minalar üzrə ekspertlərin Beynəlxalq Böhran Qrupuna verdikləri ilkin məlumatlara görə, azad edilmiş ərazinin, təxminən, beşdəbiri yüksək dərəcədə çirklənmiş və təxminən üçdəikisi humanitar minatəmizləmə üçün prioritet sahə kimi təsnif edilir".

H.Səfixanov qeyd etdi ki, qaçqın və məcburi köçkünlərin münaqişə başa çatdıqdan sonra layiqli şəraitdə öz evlərinə qayıtmaq hüququ beynəlxalq humanitar hüquqda da öz əksini tapıb. Vətən müharibəsi də erməni işğalı səbəbindən didərgin düşmüş yüz minlərlə azərbaycanlı üçün geri qayıdış perspektivi açdı. Lakin tezliklə məlum oldu ki, məcburi köçkünlərin geri qayıtmalı olduğu ərazilərin həddindən artıq minalanması və PHS problemi bu prosesə böyük maneədir.

Hazırda ölkəmizin problemin aradan qaldırılması ilə ciddi şəkildə məşğul olduğunu bildirən ekspert hökumətin bu məsələni prioritet elan etdiyini dedi. Onun sözlərinə görə, bu, qəbul olunmuş Böyük Qayıdış proqramında da əksini tapıb. Vətən müharibəsindən sonra hər il dövlət büdcəsindən minaların təmizlənməsinə və bu fəaliyyət üçün potensialın artırılmasına 100 milyon manat vəsait ayrılır. Ancaq bu məsələdə ölkəmizə ciddi beynəlxalq dəstək yoxdur. Həyata keçirilən minatəmizləmə əməliyyatlarının 95 faizi dövlət büdcəsi hesabına maliyyələşdirilir.

*Səxavət HƏMİD*
*XQ*

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Yaşıl sivilizasiyanın COP29 anonsu

**Prezident İlham Əliyevin elan etdiyi “Yaşıl dünya naminə həmrəylik ili” ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası mahiyyəti və hədəfləri etibarilə bir-birini tamamlayan baxışlardan ibarətdir. “Yaşıl dünya naminə həmrəylik ili”nin ölkəmizdə yaratdığı yaşıl hərəkat COP29-un irəli sürdüyü iqlim dəyişiklərinin yarada biləcəyi fəlakətlərdən xilas olmaq üçün yaşıl enerjinin ön mövqeyə çəkilməsi nəticə etibarı ilə ölkələri və dünyanı qorumağa, yaşatmağa və inkişaf etdirməyə xidmət edən qlobal hadisələrdir. Yaşıl dünya naminə hərəkat sahəsində həyata keçirilən tədbirlər Azərbaycan Respublikasının COP29 kimi BMT-nin bir nömrəli beynəlxalq tədbirinə ev sahibliyi etməsinə haqq qazandırır.**





**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın prezidenti, akademik**

Eyni zamanda, müstəqil Azərbaycan Respublikasının hərtərəfli və sürətli inkişafı, beynəlxalq aləmdə əldə etdiyi nailiyyətlər də COP29-u ən yüksək səviyyədə keçirməyə geniş imkan yaratmışdır. Heç şübhəsiz ki, COP29-un estafetini qəbul etmək Azərbaycan Prezidentinin dünya liderləri sırasındakı yüksək nüfuzunun da real təzahürüdür. Prezident İlham Əliyevin açılış iclasındakı parlaq çıxışı COP29 hərəkatının manifestidir. Dərin məzmunlu bu çıxışda COP29-un əsas reallıqları və perspektivləri öz əksini tapmışdır. Prezidentin çıxışı COP29 üzrə Azərbaycan reallıqlarının gerçək təqdimatı, dünya gedişatının obyektiv qiymətləndirilməsi, yaxın-uzaq gələcəyin praqmatik paroludur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Ölkə göstəricilərinin qiymətləndirilməsində Tanrının bəxş etdiyi təbii sərvətlər meyar kimi götürülməli deyil” – mesajı COP29-un ən mükəmməl aforizmidir. Əks halda, dünya ölkələri “Tanrının bəxş etdiyi real təbii sərvətlər”dən tam imtina edib, “yaşıl keçid” axtarışı ilə yeni yaşıl imkanlar əldə edənə qədər böhran təhlükəsi ilə üzləşə bilərlər.

Azərbaycan Prezidentinin sərrast aforizm kimi səslənən fikirləri dünyanın tarazlığını pozmaq həddinə çatmamaq şərti ilə bütün təbii sərvətlərdən yerində və qədərində istifadə etməyin mümkünlüyünə realist baxışın ifadəsidir. Bu, “Tanrının bəxş etdiyi təbii sərvətlər”lə yaşıl texnologiyalardan əldə olunacaq gəlirlərin düzgün balansının tapılmasının zəruriliyini nəzərə çatdıran praqmatik çağırışdır.

Bu gün dünyanın bir çox ölkələrində, o cümlədən Azərbaycanda “Tanrının bəxş etdiyi təbii sərvətlər” COP29-un hədəflərinin həyata keçirilməsi üçün etibarlı donor funksiyasını yerinə yetirir. Fikrimizcə, o ölkələr “yaşıl keçidə” daha səmərəli şəkildə nail ola biləcəklər ki, onların yaşıl texnologiyalar əldə etmək üçün real təbii sərvətlərdən gələn dayanıqlı gəlirləri vardır. Beləliklə, Tanrının bəxş etdiyi təbii sərvətlər mövcud dayanıqlı inkişafla “yaşıl keçid” arasında yaşıl transformasiya funksiyasını yerinə yetirir. Azərbaycanın mövcud neft-qaz gəlirləri bu gün “yaşıl iqtisadi zona” kimi elan olunmuş Naxçıvan Muxtar Respublikasında, Qarabağda və Şərqi Zəngəzurda, həmçinin Böyük Qayıdış hərəkatında “yaşıl keçid” mərhələsinə uğurla keçidin hərəkətverici qüvvəsidir. Şübhəsiz, yaşıl enerji əsasında XXI əsrin yaşıl iqtisadiyyatını qura bilən və inkişaf etdirən ölkələr yaxın gələcəyin lider dövlətləri sırasına çıxmaq imkanı qazanacaqlar. Bu cəhətdən, Azərbaycan dünyanın ən şanslı ölkələrindən biridir. Çünki Azərbaycan ərazisi məşhur Mendeleyev cədvəlindəki əksər yeraltı və yerüstü təbii sərvətlərlə zəngin olan ölkədir. Bununla yanaşı, Azərbaycanda həm də artıq bir neçə ildir ki, Prezident İlham Əliyevin irəli sürdüyü neftdən asılı olmayan iqtisadiyyat modelinin yaradılması üçün düşünülmüş dövlət siyasəti həyata keçirilir. Artıq Azərbaycan Respublikasının dövlət büdcəsində neftdən asılılığı aradan qaldırmağa xidmət edən aqrar sektordan, turizmdən, nəqliyyat sferasından, iaşə xidmətindən əldə edilən gəlirlər kifayət qədər əhəmiyyətli əmsala malikdir. “Yaşıl dünya naminə həmrəylik ili” və COP29-un çağırışları neftdən asılı olmayan gəlirlərin siyahısına yaşıl iqtisadiyyatdan və alternativ yaşıl enerji mənbələrindən əldə ediləcək maliyyə imkanları da əlavə olunacaqdır.

Hazırda Azərbaycan Respublikasında yaşıl iqtisadiyyaın qurulması istiqamətində genişmiqyaslı işlər aparılmaqdadır. Bundan başqa, ölkəmizdə mövcud təbii sərvətlərin istismarının, emalının, bazara çıxarılmasının yaşıl texnologiyalar əsasında yenidən qurulması prosesləri də genişlənməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin COP29-un açılış mərasimindəki nitqində ölkəmizdə yaşıl iqtisadiyyat infrasturukturunun formalaşdırılması, bərpaolunan enerji mənbələrinin yaradılması istiqamətində həyata keçirilən dövlət proqramlarının və nəzərdə tutulan yeni layihələrin aydın mənzərəsi verilmişdir. Ölkəmizdə aparılan məqsədyönlü müasir siyasi-iqtisadi siyasət dünya reallıqlarına uyğun olaraq, mövcud təbii sərvətlərdən yaşıl texnologiyalar əsasında istifadə etməklə atmosferin sağlamlaşdırılmasına töhfə verməyə, yaşıl enerji əsasında yeni dövrün yaşıl iqtisadiyyatının qurulmasına və meydanının daha da genişləndirilməsinə yaşıl işıq yandırmağa uğurla xidmət edir. Fikrimizcə, yaşıl iqtisadiyyatın Azərbaycan modeli dünya ölkələri üçün də əhəmiyyətli təcrübə ola bilər. Bu mənada Azərbaycan Respublikası Prezidentinin COP29-un Bakı Olimpiya Stadionundakı açılış mərasimindəki çıxışında səslənən bu fikirləri yaşıl iqtisadiyyat anlayışına müasir dövrün realist baxışının ifadəsidir: “Ölkələr onların (Tanrının bəxş etdiyi təbii sərvətlərin – İ.H.) olmasına görə günahlandırılmalı və bazarda tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyil”.

Bu, yaşıl enerjiyə keçidə münasibətdə eyforiyaya qapılmağa, yaxud bu qlobal problemə birtərəfli qaydada baxmamağa, məsələyə kompleks yanaşmağa çağırışın konseptual şərhi və aydın ifadəsidir.

“Yaşıl dünya naminə həmrəylik ili”nin və COP29-un ölkəmizə və dünyaya bəxş etdiyi daha bir yaşıl sərvət də bu istiqamətdə dialoqun miqyasının genişləndirilməsindən və məzmunca yaşıl ideyalarla və əməli addımlarla zənginləşdirilməsindən ibarətdir. Bakı şəhərində COP29 miqyasında yüksək səviyyədə təşkil olunan dialoq platforması mədəniyyətlərin dialoquna, ən yeni yaşıl texnologiyaların mübadiləsinə, yaşıl transformasiyaların müzakirəsinə yaşıl işıq yandırmışdır.

Bu gün Bakı Olimpiya Stadionunda yaradılmış COP29 şəhərciyi çoxvektorlu dünya dialoq mədəniyyətinin mərkəzinə çevrilmişdir. Ölkələri əyani şəkildə təqdim edən pavliyonlarda sərgilənən iqtisadi-texniki yeniliklərlə konfrans salonlarında səslənən yaşıl elmi-praktik ideyalar bir yerdə dünyanın yaxın və uzaq yaşıl gələcyi haqqında tam yeni təsəvvürlərin formalaşdırılmasına imkan yaradır. Əslində, Bakı Olimpiya Stadionundakı COP29 Sammitində aparılan müzakirələr dünyanın yeni yaşıl mənzərəsinin dərslərindən ibarətdir.

Son illərdə Azərbaycanda və dünyada yaşıl iqtisadiyyat, yaşıl enerji, yaşıl kimya, biomüxtəliflik, ekomədəniyyət, yaşıl transformasiyalar, rəqəmsal dünya, süni intellekt, elektronəqliyyat, ekolinqvistika, “ağıllı kənd” və sair kimi yeni anlayışlar yaşıl terminologiyanın formalaşdırılmasını şərtləndirmişdir. Və yaşıl terminologiya müasir dövrün yaşıl dünyasının, yaşıl texnologiyasının danışan dili funksiyasını həyata keçirir. Ekolinqvistika anlayışı da yaşıl terminologiyanın sinonimi kimi prosesin daha da genişləndirilməsinə yol açır. Bunlar isə öz növbəsində dünyanın yeni bir inkişaf səviyyəsinə – yaşıl sivilizasiyaya keçidin xüsusiyyətlərini özündə əks etdirir. XVIII əsrdən etibarən sonrakı inkişaf mərhələlərində dünyada buxar maşınının, elektrik enerjisinin, kosmosun fəthinin, internetin kəşfinin, ağıllı texnologiyaların meydana çıxmasının fərqli sivilizasiyaları və sənaye inqilablarını yaratdığı kimi yaşıl enerji, süni intellekt və rəqəmsal inkişaf da bəşəriyyəti yeni bir inkişaf mərhələsinə doğru aparmaqdadır.

Beləliklə, Bakı Olimpiya Stadionundakı COP29 şəhərciyi yaşıl sivilizasiya problemlərini dünyanın yaşıl gündəliyinin baş mövzusuna çevirmişdir. Hazırda ən müasir yaşıl texnologiyalar əsasında salınmış COP29 şəhərciyi dünyanın yaşıl sivilizasiya müzakirələrinin möhtəşəm xitabət kürsüsüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin COP29 xitabət kürsüsündən səsləndirdiyi bəyanatlar və mesajlar dünyanın müasir gedişatının yeni yaşıl inkişaf mərhələsinin anonsudur.

Bakı COP29 sessiyası Birləşmiş Millətlər Təşkilatının “yaşıl dünya hərəkatı” mövzusunda keçirilən ümumdünya konfransıdır. Planetimizin 196 ölkəsini təmsil edən 72 mindən çox insanın çoxcəhətli səmərəli fəaliyyətini, təhlükəsizliyini, transferini, hətta, asudə vaxtını yüksək səviyyədə vahid bir ailə kimi təşkil edən Azərbaycan COP29 adlı çoxmillətli bir qitə yaratmağın nümunəsini göstərir. Bu mənada Bakı Olimpiya Stadionu Yer kürəsi, COP29-un Mavi Zonası okeanları, dənizləri, çayları və səmanı, Yaşıl Zona isə landşaftı, təbiəti simvolizə edir. Mifologiyada mavi rəngin genişlik, yaşıl rəngin isə dəyişiklik mənalarını daşıdığını nəzərə alsaq, COP29 qitəsinin müasir mənzərəsinin XXI əsrin inkişaf tendensiyalarını əks etdirdiyi qənaətinə gəlmək mümkündür. Sülh, qarşılıqlı əməkdaşlıq, ədalətli yaşıl cəmiyyət, yalnız rifaha və inkişafa xidmət edən yaşıl texnologiyalar Azərbaycan ölkəsinin yaratdığı möhtəşəm platformadan COP29 qitəsinin səsləndirdiyi yaşıl sivilizasiya çağırışlarıdır…

Azərbaycanın tarixi Qarabağ Zəfərini, Böyük Qayıdış hərəkatını, ən yüksək səviyyədə təşkil olunmuş COP29 yaşıl inkişaf platformasını qəbul edə, həzm edə bilməyən xarici ölkə dairələri öz qapılarını Günəşə qapadıqlarının fərqində olmayan bədbəxtlərdir. Azərbaycanda isə Prezident İlham Əliyevin COP29-un mötəbər xitabət kürsüsündən bütün dünya qarşısında bəyan etdiyi kimi günəşli günlərin sayı ən azı 250-dən çoxdur. Paytaxt Bakının isə bir adı da “Küləklər şəhəri”dir. Azərbaycan günəşli coğrafiyası, yaşıl enerjisi, yaşıl iqtisadiyyatı və ağıllı rəqəmsal inkişafı ilə yaşıl sivilizasiyanın astanasındadır.

---

**Replika**

# Saqqalla sözü keçmədi, bəlkə...

## *Yaxud erməni demokratiyasının “təraşı”*

**Düzəlmişdi hər yarağı, qalmışdı saqqal darağı. Bu atalar sözümüzü, əslində, Ermənistanın baş naziri Nikol Paşinyana şamil etmək olmaz. Çünki saqqalını qırxıb və ona daraq lazım olmayacaq. Ancaq məsələyə bir qədər fərqli yanaşaraq soruşaq: Nikolun hər işi düzəlib ki, saqqalını qırxıb?**

Əslində, dövlət və hökumət başçılarının özlərinin xarici görünüşlərində yenilik etmələri həmişə təəccüb və maraqla qarşılanır. Buna görə də erməni baş nazirin saqqalını qırxmasına münasibət birmənalı olmadı. Münasibətdə isə siyasi yanaşma motivləri var və durumu təbii saymaq mümkündür.

Paşinyanın saqqalsız vaxtları da olub. 2018-ci il inqilabı isə onu erməni cəmiyyətinə və dünyaya saqqallı kimi tanıtdı. Saqqal Nikolun “demokrat” obrazını tamamladı. Təxminən belə: o qədər işi var, o qədər xalqı düşünür ki, saqqalını qırxdırmağa da vaxtı yoxdur. Əlbəttə, məsələyə imic baxımından yanaşanlar da tapıldı. İndi necə düşünək? Düşünək ki, Paşinyan imicini dəyişib?

Saqqalı şikəst erməni demokratiyasının imici saysaq, hazırda belə düşünmək olar ki, Paşinyan həmin imicdən uzaqlaşır. Elə isə nəyə keçir? Hər halda, 2018-ci ildən indiyədək şikəstliyi aradan qaldırmağı bacarmadı. Deməli, ən yaxşı variant bu mahiyyətdə olan demokratiyanı bir kənara qoymaqdır. Bir şey ki, saxtadır, ondan yapışmağa nə hacət?

Digər bir məqama da diqqət yetirək. Məlum olduğu kimi, Azərbaycan cəmiyyətində erməni millətçiləri “saqqallılar” adlandırılırdı. “Saqqallılar” xalqımıza qarşı ən qatı cinayətlərin, ümumən insanlıq əleyhinə davranışların müəllifləri kimi ad çıxarıblar. Onların sırasında Xocalı cəlladları da olub. Təsəvvür edin, 2018-ci ildə Ermənistanda hakimiyyət dəyişikliyi gerçəkləşir və hakimiyyətə saqqallı Paşinyan gəlir. Burada ziddiyyət onun demokrat kimi tanınmasında idi. İstər-istəməz sual yaranırdı: Saqqallı biri erməni cəmiyyətində demokrat ola bilərmi?

Əlbəttə, ümumən saqqal saxlamağa imic baxımından nə isə demək niyyətində deyilik. Amma onun müasir ali dövlət ərkanı ilə bir araya sığmadığını da bildirməliyik. Bu mənada “demokrat” Paşinyanın saqqalının zamanında faktiki mövcud olmayan erməni dövlət ərkanına yenilik gətirdiyini də söyləmək mümkündür. Çünki ölkə iqtidarının ona qədərki liderləri sifətləri çirkli olsa da, üzləri təmiz idi. Yəni, saqqallı deyildilər. Ola bilər, onlar saqqallı vaxtlarında dinc azərbaycanlılara qarşı törətdikləri vəhşiliyi ört-basdır etmək üçün təraş olunurdular ki, iz itirsinlər.



Məlum olduğu kimi, üzü təraşlı Koçaryan–Sarkisyan xuntası uzun müddət Ermənistanı çapıb-taladı, azərbaycanlılar bir yana qalsın, öz erməni xalqına zülm və əzab yaşatdı. Tam mümkündür ki, ölkəyə 2018-ci il inqilabı ilə saxta demoktariya sırıyanlar bu məqamı nəzərə almışdılar və Paşinyan üçün imic düşünmüşdülər. Ancaq sonrakı proseslər onu göstərdi ki, Nikol vaxtilə saqqallılar necə davranırdılarsa, eyni yolu tutdu. Saqqallılar da Qarabağın Ermənistana məxsusluğunu bildirirdilər, Paşinyan da bağırdı ki, “Qarabağ Ermənistandır və nöqtə”. Bu bəyanatın Ermənistana hansı acınacaqlı aqibəti yaşatdığı isə məlumdur.

Əslində, saqqallı Paşinyanın 44 günlük müharibədən sonra da ipə-sapa yatmadığını söyləmək mümkündür, elə indi də eyni ampluadadır. O və komandası yenə anti-Azərbaycan fəaliyyətdədir, ölkəmizlə sülhdən yayınır, hər cür ağlabatmaz manipulyasiyalara yol verir. Və bu məqamda Paşinyan saqqalını qırxır. Saqqalım yoxdur, sözüm keçmir, el məsəlimiz də var. Saqqalnan sözü keçmədi, bəlkə saqqalsız keçər?

Sonda onu da deyək ki, saqqala qulluq lazımdır. Qulluq olmadısa, natəmizlik yaranır. Paşinyan imicini dəyişdirməsini nümayişə çıxarırsa, deməli, Ermənistan üçün təmiz səhifə açmaq, ölkəni altına girə bilməyəcəyi ağır yükdən uzaq tutmaq istəyir. Ona görə də onun indiki həssas məqamda, belə demək mümkünsə, saqqalsızlaşmasını müsbət məqam kimi dəyərləndirək. Erməni xalqı da ümid etsin ki, Nikolun olan-qalan ağlı saqqalla birgə yoxa çıxmayacaq.

**P.S.** *Lənət şeytana, hərdən düşünürsən ki, Nikola saqqalını qırxdırmaq barədə əmri bəlkə Fransa prezidenti Emmanuel Makrondan gəlib. Axı baş nazir N. Paşinyan belə “bəşəri əhəmiyyətli qlobal məsələləri” həll edərkən, adətən, prezident Makrondan əmr gözləyir. Nə deyim, vallah, hər şey ola bilər...*

***Ə.RÜSTƏMOV***
***XQ***

# COP29-un geosiyasi və siyasi-tarixi əhəmiyyəti

**III MƏQALƏ**

## XXI əsrin strateji sərvəti

Alimlər XXI əsrdə insan rifahını və onun tam inkişafını bəşəriyyətin əsas məqsədi hesab edirlər. Bu məqsədə elmlə çatmağın mümkünlüyü haqqında fikir geniş yayılmışdır. Ona görə də sosial dövlətlərdə insan və cəmiyyətin rifahı məsələsi strateji məqsəd kimi qarşıya qoyulur. İnsanın mənəviyyatı, intellekti, əxlaqı, mədəniyyəti, cəmiyyətdə etik tərəqqinin müxtəlif aspektləri, toplum miqyasında mənəvi-əxlaqi dəyərlərin inkişafı və s. kimi məsələlər qlobal miqyasda aktiv müzakirə mövzularıdır.

Təbii ki, bu cür geniş və dərin anlaşılan insanın inkişafı zəruri olaraq maddi istehsalı, bütövlükdə, iqtisadiyyatı elə inkişaf etdirməyi tələb edir ki, bir tərəfdən maddi bolluq yaransın, digər tərəfdən dünya ekoloji cəhətdən həmin bolluğu ziddiyyətsiz "daşıya bilsin" və cəmiyyətlər miqyasında yüksək rifah yaransın. Elmi araşdırmalara görə, bu şərtlər daxilində dünyanın harmonik, ekoloji təmiz və davamlı inkişafına nail olmaq mümkündür.

Bu cür yanaşma başqa amillərlə yanaşı, iki vacib məsələni də xeyli aktuallaşdırır– enerji daşıyıcılarının istehsalı və istifadəsinin (istehlakının) artırılması və bunun fonunda dünya ekologiyasının qorunması. Məsələnin birinci tərəfi enerji daşıyıcılarının istehsalının davamlı artırılmasını tələb edir. Bununla bağlı elmi proqnozlar belədir ki, hələ XXI yüz ildə neft və qazın istehsalına tələbat yüksək səviyyədə qalacaqdır. Bəzi proqnozlara görə, ən azı XXI əsrin 70-ci illərinə qədər olan müddətdə bu belə olacaq. Deməli, dünyanın ən inkişaf etmiş ölkələri belə uzun müddət neft və qazın ənənəvi istehsal üsulundan tam imtina edə bilməyəcəklər. Lakin bu zərurət alternativ üsullar axtarışını da çox akuallaşdırır.

Məsələ ondan ibarətdir ki, yüksək rifah getdikcə daha çox istehsal tələb edir. İstehsalın artırılması birbaşa enerji sərfiyyatına bağlıdır. Enerji sərfiyyatı hansı növ enerjiyə üstünlük verilməsi məsələsini ortaya çıxarır. Çünki əsas məqsəd dünyanın ekoloji tarazlığını saxlamaqdır ki, o pozulsa, ümumiyyətlə, bəşəriyyətin mövcud olub-olmaması dilemması yaranar.

Bununla yanaşı, enerji məsələsi daha iki mühüm amili dünyanın gündəminə gətirir: enerjinin daşınması və paylanması! Dünyanın hansı ölkəsi və regionu enerji istehsalında önə çıxıb aparıcı olmalıdır? Və bu aparıcılığı hansı meyarlarla müəyyən etmək daha doğrudur?



İkinci məsələ istehsal edilən enerji hansı marşrutlarla dünyanın digər bölgələrinə nəql olunmalıdır? Daha doğrusu, burada üstünlük hansı istiqamətlərə verilməlidir?

Bu iki məsələyə konstruktiv aspektdə cavab axtarışları avtomatik olaraq enerji faktoru ilə siyasi, geoiqtisadi, geosiyasi və təhlükəsizlik aspektlərinin qarşılıqlı əlaqəsini nəzərə almağı tələb edir. Bu isə artıq böyük siyasi-diplomatik məharət, uzaqgörənlik, şəffaf və ədalətli kurs, yüksək çalışqanlıq və bütün bunların yekunu kimi yeni liderlik tələb edir!

Ancaq problem bu məsələlərlə məhdudlaşmır. Çünki istehsal prosesinin təşkilinin və hansı enerji növünün istifadəsinə üstünlük verilməsinin bəşəriyyətə daha çox faydalı olması ciddi əhəmiyyət kəsb edir. Məsələ belədir ki, sürətlə artan enerji istehsalı Yer kürəsini ekoloji cəhətdən korlayacaqsa, onda bu proses davamlı tərəqqiyə apara bilməz. Hətta, dünyanı fəlakətə sürükləyə bilər. Artıq bu ssenari haqqında ciddi elmi araşdırmalar və proqnozlar mövcuddur. Dünya atmosferin çirklənməsi fonunda iqlim dəyişikliyinin ciddi qlobal problem olduğunu nəinki nəzəri qəbul etmişdir, həm də COP nümunəsi göstərir ki, yaranmış vəziyyətdən çıxış yollarını birgə axtarmağı zəruri hesab etmişdir.

İqlim dəyişikliyi ilə bağlı detallara varmağa ehtiyac görmürük – kifayət qədər informasiyalar geniş yayılmışdır. Bununla yanaşı, enerji istehsalı və istifadəsinin fəlsəfəsi ilə tarazlı ekoloji mühitin təmin edilməsinin fəlsəfəsi arasında sıx bağlılığı təhlil etməyə ehtiyac çoxdur. Bu, yalnız elmi məsələ deyildir. Çünki problemin geosiyasi, siyasi, geoiqtisadi və diplomatik tərəfləri daha çox əhəmiyyət kəsb edir. Bu da, təbii ki, dövlət siyasətinin mühüm istiqamətlərindən biri qismində cari və strateji siyasi kursu məharətlə dünya siyasəti ilə uyğunlaşdırmaq vəzifəsini qarşıya qoyur.

COP29-un arxa planda geosiyasi və tairixi-siyasi əhəmiyyəti kontesktində təhlil edilməsini vacib edən başlıca amillər bunlardan ibarətdir. BMT-nin İqlim Sammitinin Bakıda keçirilməsi yalnız bu günün aktual məsələləri ilə bağlı deyildir. Burada daha çox Azərbaycanın enerji sferasında, ekologiya sahəsində, mədəniyyətdə, bütövlükdə, iqtisadiyyatda əldə etdiyi nailiyyətlərin qiymətləndirilərək sonrakı "yol xəritəsini" Bakısız davam etdirmənin dünyaya faydası olmayacağı anlamının qəbul edilməsi rol oynayır. Bu anlamda dünyanın davamlı və dayanıqlı, ekoloji təmiz inkişafı ("yaşıl dünya" mənasında) yolları Azərbaycandan keçir.

Bu tezisi sübut etmək üçün Azərbaycanın hansı səbəblərdən qitələrarası enerji körpüsü ola biləcəyinin siyasi-nəzəri izahını vermək lazımdır.

## Azərbaycan qitələrarası enerji körpüsü olacaq

Təbii ki, burada "körpü" sözü metaforadır və məna yükü ölkəmizin geniş geosiyasi məkanda dövlətləri birləşdirə bilmək, qarşılıqlı faydalı əməkdaşlıq müstəvisinə cəlb etmək və onu reallaşdırmaq aspektlərində böyük potensiala malik olmasından ibarətdir. Bu anlama mütləq surətdə Azərbaycanın realpolitika müstəvisində praktiki siyasi-diplomatik kursu ilə buna nail olması əlavə edilməlidir.

Azərbaycanın yeni enerji strategiyası ilə bağlı keçən əsrin 90-cı illərinin ortalarından ən yüksək səviyyələrdə danışılmağa başlanmışdır. Bu strategiyanı Azərbaycan rəhbərliyi (Ulu öndərdən başlayaraq) praktiki müstəvidə davamlı olaraq həyata keçirmişdir. Qarşıya çıxan çox sayda çətinliklərə baxmayaraq, Azərbaycan rəhbərliyi enerji strategiyasını həyata keçirməkdədir. Bu prosesin ümumi ifadəsini dolğunluqla Prezident İlham Əliyev 2022-ci ildə Çernobbioda vermişdir. Həmin il sentyabrın 2-də İtaliyanın Çernobbio şəhərində "The European House – Ambrosetti" beyin mərkəzi tərəfindən "Dünya, Avropa və İtaliyaya baxış" və "Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi" mövzusunda 48-ci Beynəlxalq Çernobbio Forumunda Azərbaycan Prezidenti enerji strategiyasının artıq üçüncü məhələsinin başladığını bəyan etmişdir. Birinci iki mərhələ dünyanın böyük enerji şirkətlərini Azərbaycanda işləməyə cəlb etməyi və konkret ixrac marşrutlarını reallaşdırmağı nəzərdə tutmuşdur. Üçüncü mərhələ isə "yaşıl enerji" və ya bərpaolunan enerji sferasında fəaliyyəti əhatə edir.

Bu, geosiyasi və siyasi baxımdan tarixi bir ümumiləşdirmə idi, çünki Azərbaycan rəhbərliyinin davamlı olaraq düşünülmüş surətdə strateji hədəfi olan enerji siyasəti müəyyən etdiyi aydınlaşdı. İlham Əliyevin bu bəyanatından sonra müxtəlif mötəbər tədbirlərdə məsələnin energetik, siyasi və geosiyasi aspektlərini izah etməsi prosesin rəsmi Bakı tərəfindən inamla davam etdirildiyini göstərirdi.

Azərbaycanın dövlət başçısı 2022-ci il noyabrın 25-də Bakıda keçirilən "Orta dəhliz boyunca: geopolitika, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda çıxışı zamanı ölkəmizin bu layihədə fəaliyyətinə geosiyasət, təhlükəsizlik və iqtisadiyyatın qarşılıqlı əlaqəsi kontekstində birləşdirici və sabit əməkdaşlıq mühiti yaraması rolunu önə çəkmişdir. İlham Əliyev demişdir ki, "Təbii ki, istənilən genişmiqyaslı layihənin icrası üçün önəmli elementlərdən biri sabitlikdir". Buna görə də ölkə rəhbərliyi bu aspektə xüsusi diqqət yetirmişdir. Yəni "Azərbaycanda uzun illərdir ki, sabitlik var və bu, bizim iqtisadi inkişafımızın əsas amillərindən biridir. İndi Azərbaycanın beynəlxalq arenada oynadığı rol da, həmçinin bizim daxili siyasətimiz sayəsində əmələ gəlmişdir".

Məhz bu kimi fəaliyyət Azərbaycanı qitələrarası məkanda mühüm körpüyə çevirməkdədir. Prezident bu bağlılıqda belə demişdir: "Güclü iqtisadiyyat, siyasi, iqtisadi sabitlik və hökumət siyasətimizin proqnozlaşdırılması – bütün bu amillər körpülərin və mümkün qədər çox ölkə ilə daha yaxın münasibətlərin qurulması ilə yanaşı, bugünkü reallığa gətirib çıxarıb. Buna görə siyasi sabitlik, təhlükəsizlik, iqtisadiyyat – bütün bu amillər çox vacibdir".

2024-cü il aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumdakı nitqi zamanı Azərvbaycan Prezidenti enerji strategiyası kontekstində xüsusi qeyd etmişdir ki, "Bakı dünyanın neft sənayesinin yarandığı yerdir. Bu gün isə rəmzi məna ondan ibarətdir ki, qarşıdan gələn noyabr ayında on minlərlə iştirakçı iqlim dəyişikliyi nöqteyi-nəzərindən planetimizin gələcəyini müzakirə etmək üçün COP29-la bağlı Bakıya səfər edəcəkdir".

Nəhayət, 2024-cü il sentyabrın 6-da "Dünya, Avropa və İtaliya haqqında bilgilər" mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxışı zamanı Prezident İlham Əliyev bəyan etmişdir ki, iki aydan sonra biz ən böyük iqlim konfransına – COP29-a evsahibliyi edəcəyik... Tarixdə ilk dəfə COP bizim regionumuzda keçiriləcək.

Bu hadisənin daşıdığı məna, onun geosiyasi əhəmiyyəti və Azərbaycanın enerji strategiyası kontekstində Prezidentin aşağıdakı fikirləri maraqlıdır: "Biz qlobal arenada müxtəlif aktorlar arasında körpülərin qurulması üzərində fəal çalışırıq. Hər kəsə məlumdur ki, iqlim mövzusu ölkələri və xalqları ayıran bir mövzudur. Qarşılıqlı iddialar və ittihamlar var – kim planetimizə xələl gətirməkdə daha çox günahkardır, kim daha çox ödəməlidir və sair. Yəni, beynəlxalq arenada qlobal aktor olmasaq belə, zənnimcə qlobal Cənub və qlobal Şimal arasında körpülərin qurulması mümkündür".

Yuxarıda gətirilən nümunələr inandırıcı şəkildə göstərir ki, COP29 faktiki olaraq Azərbaycanın enerji siyasətinin böyük uğurlarından biridir. Bu tədbirin təməlində illərdir davamlı olaraq reallaşan siyasət və konkret energetik layihələr dayanır. Məlumdur ki, enerji təhlükəsizliyi indi milli təhlükəsizliyin tərkib hissəsidir. Azərbaycan Avropa İttifaqının 10 üzvü ilə strateji tərəfdaşdır və 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatının ən fəal üzvüdür.

Deməli, real olaraq Azərbaycanın enerji strategiyası qitələrarası geosiyasi məkana təhlükəsizliyin və əməkdaşlığın təmini baxımından təsir edir. Bu məqam COP29-un çox geniş aspektdə Bakıda keçirilməsinin əhəmiyyətini göstərməkdədir. Və həmin çərçivədə enerji sferasında Azərbaycanın körpü rolunu oynaması bir gerçəklikdir.

Əlbəttə, COP29-un daşıdığı mənalar enerji amili ilə də məhdudlaşmır. Prezident İlham Əliyev ticari və nəqliyyat sferalarında Azərbaycanın mühüm körpü rolunu oynaması məsələsini də COP29 kontekstində ayrıca vurğulamışdır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azərbaycan iqlim konfransına mükəmməllik və işgüzarlıq gətirib

**COP29 təkcə Azərbaycanın diqqət mərkəzində deyil. Beynəlxalq ictimaiyyət də qlobal iqlim problemlərinin müzakirəsində fəal iştirak edir. Yaşıl dünyamızın taleyinə biganə qalmayan hər bir şəxs Bakıda keçirilən müzakirələri izləyir, bu möhtəşəm tədbirin əhəmiyyətini xüsusi vurğulayır. Paytaxtımızın küçələrində əcnəbilərin fikirlərini öyrənən XQ-nin əməkdaşları da buna əmin olublar.**

Amsterdamlı tələbə **Rogier Kratz** süni intellekt ixtisası üzrə təhsil alır. Bizimlə söhbətində bildirdi ki, gələcəyimiz olan gənc nəsil təbiətə münasibətdə ayıq-sayıq olmalıdır:



– Planetin sabahının necə olacağı bizdən asılıdır. 3 gün COP29-da iştirak etdim. İqlim dəyişikliyi haqqında mövzular hər birimiz üçün maraqlı olmalıdır. Bəşəriyyətin üzləşdiyi ekoloji problemlərin yaranma, yayılma tarixi, təzahür formaları və bu problemlərlə mübarizə yollarını öyrənməliyik. Ətraf mühitin mühafizəsi, qlobal ekoloji, ərzaq, enerji və xammal problemləri həll edilməlidir. İqlim böhranının, çirklənmənin insan orqanizminə və planetimizin gələcəyinə təsiri bu gün geniş müzakirə mövzusu olmalıdır. Çirklənmə sağlamlıq böhranı kimi ağciyərlərimizə, ürəyimizə, beynimizə təsir edir. Bir çox ölkələrdə insanlar su çatışmazlığı, iqlim böhranı, havanın temperaturunun həddindən artıq yüksək olmasından əziyyət çəkirlər. Təcili olaraq bu problemlərin həllinə yönəlik tədbirlər görülməlidir.

Dünya dövlətləri rəqabət üstünlüyünə nail olmaq üçün süni intellektin potensialından geniş istifadə etməyə çalışırlar. Amma onu da nəzərə alaq ki, innovativ texnologiyaları tətbiq etməklə ətraf mühiti qorumaq mümkündür. Biz gənclər də bu gün üzərimizə düşən məsuliyyəti hiss edirik. Bu gün hər birimiz xalqımızı iqlim dəyişmələrinin və iqlim böhranlarının fəsadlarından müdafiə etməyə çalışmalıyıq.

Pakistanlı **İmran Mohammed** dostları **Vokas Qasım və Amir Avanla** Azərbaycana səfər ediblər. Artıq 5 gündür Bakıdadırlar. Deyir ki, Bakının havası sakit, təbiəti mülayimdir:



– Bakı küləklər şəhəridir. Düşünürdüm kü, möhkəm külək olacaq və şəhərdə necə gəzəcəyik? Burada təbiət o qədər sakitdir ki... Əsl gəzməli havadır. Vaxtımız çox səmərəli keçir. Parklarda, xiyabanlarda vaxt keçirməyi xoşlayırıq. Dağüstü Park çox maraqlı yerdir. Eləcə də, Dənizkənarı Bulvar çox xoşumuza gəldi. Tarix muzeyində olduq. Bakı beynəlmiləl şəhərdir. Bu, yeməklərdən də aydın görünür. Burada Pakistan yeməklərini də yaxşı hazırlayırlar. Elə bizdəki kimi... Dostlarımla yenidən Bakıya səfər etməyi düşünürük. Növbəti dəfə bayramların birində gələcəyik.

Ümumiyyətlə, Pakistan və Azərbaycan arasında sıx dostluq və qardaşlıq əlaqələri var. Qardaş Azərbaycanın beynəlxalq aləmdə son vaxtlar nüfuzu xeyli artması bizi də çox sevindirir.

Ölkənizdə ətraf mühit məsələlərinə yetərincə diqqətlə yanaşılır. Bəşəriyyəti iqlimlə bağlı gözləyən fəlakətin qarşısını almaq üçün böyük işlər görmək lazımdır. COP29 konfransının tarixdə ən effektiv qlobal iqlim sammiti olacağına böyük inam var.

Hindistandan gələn tələbə **Şannan Sünik** Azərbaycanın onu yaxşı mənada təəccübləndirdiyini dedi:



– Artıq bir həftədir ki, buradayam. Bakının yeni tikililəri, "göydələnlər" xüsusilə diqqətimi cəlb etdi. Öyrəndim ki, şəhər son 20 ildə öz simasını büsbütün dəyişib. "Köhnə şəhər"də qədimliklə müasirliyin vəhdəti insanı heyran edir.

COP29-la bağlı onu deməliyəm ki, ölkənizdə böyük uğurla keçirilir. Dünya ölkələri iqlim böhranının həllinə yönəlik məsələləri müzakirə edirlər. Resursların səfərbər edilməsi, qlobal istiləşməni məhdudlaşdırılması üçün qətiyyətli tədbirlər görmək çox vacibdir. Bu gün hamı üçün daha dayanıqlı və davamlı gələcək qurmaq üçün güclü siyasi iradə nümayiş etdirilməlidir. Azərbaycana bu mühüm tədbirin təşkilində böyük uğurlar arzulayırıq.

**Fahad Khaja Naseer** pakistanlıdır. Bakıya turist kimi gəlib:

– Turizm sahəsində çalışan mütəxəssis kimi deyə bilərəm ki, biz Azərbaycanı cazibədar ölkə olaraq qəbul edirik. Bu ölkə zəngin tarixi, mədəniyyəti, təbii gözəllikləri və qonaqpərvərliyi ilə həmişə bizi cəlb edib. Bakı müasir və tarixi elementləri özündə birləşdirir. "Flame Towers", Heydər Əliyev Mərkəzi və Bakı Bulvarı kimi müasir arxitektura nümunələri, həmçinin



İçərişəhər, "Qız Qalası" və Şirvanşahlar Sarayı kimi tarixi yerlər vizual və mədəni zənginlik təqdim edir. Plov, kabab, dolma və qutab kimi yeməkləriniz diqqətimi çəkir. Şəhərlərdə və turistik bölgələrdə yüksək səviyyədə xidmət göstərilir. Hazırda Bakı böyük bir konfransa evsahibliyi edir. Təbii mühit – insanın həyatı üçün əvəzedilməz şərtlərdəndir. Ona görə hər bir ölkə iqlim dəyişikliyi ilə mübarizə aparmalıdır.

Seneqallı **Fatou Mbov** Bakıda olmaqdan çox məmnun qaldığını dedi. O qeyd



etdi ki, COP29 tədbirini yüksək səviyyədə təşkil edən Azərbaycan beynəlxalq aləmdə diqqət mərkəzindədir. Bu cür mötəbər və əhəmiyyətli konfrans ekoloji şüurun artırılması, dayanıqlı turizm, iqlim dəyişikliyi ilə mübarizə və yaşıl iqtisadiyyat kimi məsələləri ön plana çəkir. Dünyada insanlar ekoloji problemlərlə üzləşir və bunların qarşısı alınmazsa, böyük fəlakətlər baş verə bilər. COP29-da qəbul ediləcək qərarlar müxtəlif istiqamətdə ekologiyanın bərpa olunmasına böyük töhfə verəcək. Ölkəniz haqqında onu deyə bilərəm ki, qonaqpərvərsiniz. Milli mətbəx çox zəngindir.

**Daha bir pakistanlı qonaq Abdul Khader** də ətraf mühitin qorunması qayğılarının müasir dünyanı çox narahat etdiyini dilə gətirdi:



– Bu günlər Bakıda keçirilən COP29-da çox mühüm məsələlər müzakirə edilir. İnsanlar təbiətin qanunlarını dərk etməli, baş verə biləcək bir çox dəyişiklikləri qabaqcadan müəyyənləşdirməyi bacarmalıdırlar. Bəşəriyyət üçün müdhiş təhlükəyə çevrilən ekoloji böhrana qarşı hər birimiz mübarizə aparmalıyıq.

Bakıda olduğumuz günlər şəhərinizlə yaxından tanış olduq. Azərbaycan çox qədim tarixə sahib və müxtəlif mədəniyyətlərin bir arada cəmləşdiyi ölkədir. Azərbaycanın təhlükəsizliyini və rahatlığını yüksək qiymətləndirirəm. Turistlər burada özlərini təhlükəsiz hiss edirlər. Burada qiymətlər, xüsusilə Avropaya və digər qonşu ölkələrə nisbətən daha sərfəlidir. Məhz irimiqyaslı tədbirlər belə ölkələrdə keçirilməlidir.

***Leyla QURBANOVA,***
***Rizvan FİKRƏTOĞLU,***
***Vüsalə ƏLİYEVA,***
***Cavid QAÇAYEV (foto)***
***XQ***

# Azərbaycan yaşıl enerji dəhlizlərinin də önəmli qovşağı olacaq



**Energetika naziri Pərviz Şahbazov COP29 çərçivəsində keçirilən "Enerji keçidi üzrə investisiya Forumu"ndakı çıxışında "Mərkəzi Asiya–Azərbaycan yaşıl Enerji Dəhlizi"nin hazırda həyata keçirilən "Xəzər–Qara dəniz–Avropa" və "Azərbaycan–Türkiyə–Avropa" yaşıl enerji dəhlizləri ilə əlaqələnən nəhəng vahid yaşıl enerji platforması"nın mühüm həlqəsi kimi diqqət çəkdiyini bildirib. Nazir çıxışının davamında söyləyib. "Bu vizion Azərbaycan və Mərkəzi Asiyadan böyük həcmlərdə yaşıl elektrik enerjisi və yaşıl hidrogenin Türkiyə və Avropa bazarlarına nəqlini gerçəkləşdirməyi, Asiyadan Avropayadək böyük bir coğrafiyada bərpaolunan enerji istehsal və idxal mərkəzlərini birləşdirməyi, bərpaolunan enerji balanslaşdırmanı ehtiva edir".**

Azərbaycan rəsmisi daha sonra vurğulayıb ki, Prezident İlham Əliyevin Mərkəzi Asiya, Cənubi Qafqaz və Xəzər regionlarının vahid geosiyasi məkana çevrilməsi, ölkələrimiz arasında strateji tərəfdaşlıqların qurulması və möhkəmləndirilməsinə əsaslanan siyasətində bərpaolunan enerji sahəsində əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət verilir.

yaşıl enerji dəhlizləri təkcə enerjinin ötürülməsini deyil, həm də sabit və davamlı gələcəyin yol xəritəsini müəyyənləşdirir. Mərkəzi Asiya və Azərbaycanın birgə səyləri ilə Azərbaycan gələcək nəsillərə təmiz, təhlükəsiz və firavan bir enerji mirası ötürür. Hər üç dəhliz, Mərkəzi Asiya ilə yanaşı, Xəzər dənizinin nəhəng enerji potensialı investorlar, enerji şirkətləri və maliyyə institutları üçün geniş əməkdaşlıq imkanları vəd edir.

Xatırladaq ki, "Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırmasının ilkin nəticələrinin təqdimatının keçirilməsi COP29 çərçivəsində planlaşdırılıb. Layihənin statusu, digər komponentləri, eləcə də Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında qurulacaq yaşıl enerji dəhlizinin inkişafı ilə bağlı tədbirlərin yaxın perspektivdə gerçəkləşdirəcəyi də nəzərdə tutulub.

Yeri gəlmişkən, indiyədək bununla əlaqədar birgə müəssisənin təsis sənədləri imzalanıb. Onun qarşısında isə, ilk növbədə, layihənin texniki-iqtisadi əsaslandırmasını hazırlamaq və maliyyələşdirmək, icrası proseslərinə nəzarət etmək əsas vəzifələr kimi qoyulub. Beləliklə, yaşıl enerji dəhlizinin əsas resurs mənbəyi olan Azərbaycanın Avropa ölkələrinin bərpaolunan enerji sahəsində əsas tərəfdaşlarından birinə çevriləcəyi prioritet istiqamətə çevrilib.

yaşıl Enerji Dəhlizi Birgə Müəssisəsinə rəhbərliyin rotasiyaya əsaslanması, həmçinin Fiber-Optik Kabel Xəttinə dair tapşırıqların və Bolqarıstanın layihəyə inteqrasiyası ilə bağlı məsələlərin dördtərəfli layihənin texniki-iqtisadi əsaslandırmasında ehtiva edilməsi razılaşdırılıb. Bundan başqa, ümumi və qarşılıqlı maraq doğuran layihələrin ikinci siyahısı ilə əlaqədar 2024-cü ilin sentyabr ayında Avropa Komissiyası tərəfindən başladılmış proses çərçivəsində status üçün kollektiv şəkildə müraciət barədə razılığa gəlinib.

Onu da deyək ki, 2022-ci il dekabr ayının 17-də imzalanan "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"də Rumıniya ilə respublikamız arasında bərpaolunan mənbələrdən elektrik enerjisinin nəqli üçün Gürcüstan və Qara dəniz vasitəsilə sualtı kabelin çəkilməsi nəzərdə tutulub və 1000 meqavat gücündə 1195 kilometr (1,1 min kilometr sualtı və 95 kilometr yerüstü) uzunluğunda sualtı elektrik kabelinin tikintisi qərara alınıb. Bu anlaşma ilə Qara dəniz hövzəsində milli və regional enerji təhlükəsizliyinin güclənməsi, təchizat mənbələrinin şaxələndirilməsi və Xəzərdə bərpaolunan enerji istehsalı potensialının kapitallaşdırılması ilə bağlı dörd ölkə arasında əməkdaşlığın əsası qoyulub.

Layihənin əhəmiyyətini nəzərə alan Dünya Bankının İcraçı Direktorlar Şurası elektrik enerjisi və bərpaolunan enerji mənbələri proqramı vasitəsilə Qara dənizin dibinin geofiziki və geotexniki tədqiqatlarının aparılmasının maliyyələşdirilməsi üçün 35 milyon dollar məbləğində krediti təsdiqləyib. Avropa İttifaqı (Aİ) isə Şərq Tərəfdaşlığı İnvestisiya Planına əsaslanaraq layihəyə 2,3 milyard avro ayırmaq niyyətini bəyan edib. Eyni zamanda, Avropa Yenidənqurma və İnkişaf Bankı bu layihəyə dəstək məqsədilə müzakirələrə başlayıb.

## Ekspert rəyi

**Samir HEYDƏROV,**
**iqtisadçı–ekspert**



Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən, yaşıl enerji təchizatçısına çevrilməyi planlaşdırır. Çünki Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, respublikamızın bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135 qiqavat, dənizdə 157 qiqavatdır. yaşıl enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən, külək enerjisi üzrə 3000 meqavat, günəş enerjisi üzrə 23000 meqavat, bioenerji potensialı 380 meqavat, dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir. Əlbəttə, bu göstəricilər xarici strateji investorların Azərbaycanın enerji bazarı üçün maraqlı olmasını deməyə əsas verir.

Xəzər regionundan Aİ ölkələrinə Gürcüstan və Qara dəniz vasitəsilə sualtı kabelin çəkilməsi 4 qiqavata qədər yaşıl enerjinin ötürülməsini asanlaşdıracağı gözlənilir. Eyni zamanda, bu layihə ilə yanaşı, Xəzər regionundan Aİ-yə yaşıl hidrogenin çatdırılması üçün sistemin yaradılması da diqqətdə saxlanılır. Artıq Xəzər dənizindən Qara dənizə, oradan da Avropaya istiqamət götürəcək bu layihənin texniki-iqtisadi əsaslandırılması sonuncu mərhələyə qədəm qoyub.

Layihənin texniki–iqtisadi əsaslandırılmasını İtaliyanın CESİ şirkəti həyata keçirir. Əsaslandırmanın bu ilin sonuna qədər hazır olacağı gözlənilir. Araşdırmalar nəticəsində elektrik kabelinin optimal xarakteristikası müəyyənləşdirilib, tikinti xərcləri hesablanıb və layihənin iqtisadi təhlili aparılıb. Həmçinin kabelin quru və dənizdəki hissələrinin ilkin marşrutu təhlil olunub, layihənin icra planı və satınalma strategiyası hazırlanıb. Dəniz dibinin geotexniki, geofiziki, ekoloji və arxeoloji tədqiqatlarının aparılması üçün zəruri işlərin təsviri və tenderlə bağlı texniki tapşırıq da tərtib olunub.



# "Yaşıl artım portalı"nın təqdimatı

**COP29 çərçivəsində İqtisadiyyat Nazirliyinin və Harvard Universitetinin "Growth Lab" Beynəlxalq İnkişaf Mərkəzi arasında əməkdaşlıq əsasında hazırlanmış qlobal "Yaşıl artım portalı"nın təqdimatı keçirilib.**

Tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov portalın dayanıqlı inkişafa nail olmaq üçün qlobal əməkdaşlıqda əhəmiyyətini vurğulayıb. Bu təşəbbüs vasitəsilə iqtisadiyyatda yaşıl keçid strategiyalarının fundamental tədqiqatlara əsaslanacağı diqqətə çatdırılıb. İqtisadiyyat naziri iqlim məsələlərinin iqtisadi planlaşdırmada əhəmiyyətindən danışaraq qeyd edib ki, iqtisadi planlaşdırma siyasətlərinin və təchizat zəncirinin inteqrasiyasına ehtiyac var və bu məsələ COP prezidentliyinin büdcələri və əhatə dairəsi ilə irəli sürülən təşəbbüslərdə öz əksini tapıb.

SOCAR-ın vitse-prezidenti Kənan Nəcəfov şirkətin "xalis sıfır" hədəfi götürdüyünü vurğulayıb. Bu məqsədlə karbonsuzlaşma, enerji keçidi və aşağı karbon həllərinin tətbiqi üzrə görülən işlər barədə məlumat verilib. Yeni portalın SOCAR-ın enerji transformasiyasına da töhfə verəcəyi qeyd olunub.

Harvard Universitetinin "Growth Lab" Beynəlxalq İnkişaf Mərkəzinin təsisçisi və direktoru Rikardo Hausmanın tədbir iştirakçılarına videomüraciəti dinlənilib. Qlobal iqlim dəyişikliyi ilə mübarizədə karbon emissiyalarının azaldılmasının, bərpaolunan enerjinin təşviqinin mühüm rolu vurğulanıb.

"Growth Lab" Beynəlxalq İnkişaf Mərkəzinin baş tədqiqat meneceri Timoti Çeston "Yaşıl artım portalı" barədə iştirakçılara məlumat verib. Onlayn portalın Harvard Universitetinin 250 ölkə və iqtisadi regionu, həmçinin 1,7 milyon istifadəçini əhatə edən "İqtisadi Mürəkkəblik Atlası"na (Atlas of Economic Complexity) inteqrasiyası nəzərdə tutulub.

Layihənin 2025-ci ildə tam olaraq fəaliyyətə başlaması planlaşdırılır. Portaldan istifadə ödənişsiz olacaq.

**İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının İnkişaf Yardımı Komitəsinin sədri Karsten Sauerin moderatorluğu ilə COP29 çərçivəsində keçirilən "İqlim fəaliyyətinin inkişaf maliyyəsinə inteqrasiyası" mövzusunda müzakirədə xarici işlər nazirinin müavini Yalçın Rəfiyev bildirib ki, iqlim və inkişaf fəaliyyətinin inteqrasiyası davam edən prosesdir. İnkişaf sahəsində əməkdaşlıq sektorunun dəyərli təcrübə qazanması, prioritetlərin və siyasətlərin uyğunlaşdırılması, ssenarilərin maksimum səviyyəyə çatdırılması ilə bağlı yaxşı nümunələr var.**

# İqlim fəaliyyətinə yönələn maliyyə inkişafa da töhfədir



Yalçın Rəfiyevin sözlərinə görə, iqlim məqsədləri üçün rəsmi inkişaf yardımı son 10 ildə tədricən artaraq 2022-ci ildə ümumi inkişaf yardımının üçdəbirinə çatıb. İqlim dəyişmələrinin inkişaf maliyyəsinə daxil edilməsi barədə ümumi fikrin olması çox əhəmiyyətlidir. İnkişaf maliyyəsi və iqlim maliyyəsi bir-birini əvəz edə bilməz. İnkişaf maliyyəsinin təminatçıları kollektiv təcrübəyə əsaslanaraq, xüsusilə də iqlimin digər Dayanıqlı İnkişaf Məqsədlərinin mühüm hərəkətverici amil olduğunu nəzərə alaraq onun mövcud layihələr siyahısına daxil olunmasını davam etdirməlidir.

COP29-un baş danışıqçısı diqqətə çatdırıb ki, ən az inkişaf etmiş ölkələr üçün özəl maliyyənin payı çox aşağıdır. Buna görə də müvafiq mənbələrdən alınan maliyyənin həcmi sürətlə genişləndirilməli, inkişaf edən ölkələr üçün ictimai maliyyənin artırılmasından əlavə, onun zəruri rolu nəzərə alınmalıdır.

İnkişaf etməkdə olan ölkələr üçün dövlət maliyyəsini artırmaqdan başqa, bütün beynəlxalq maliyyə strukturunun sistem miqyaslı yanaşmaların qəbulu da daxil olmaqla gələcək iqlim maliyyəsi hədəfləri və inkişaf nəticələrinin səmərəliliyini maksimum səviyyəyə çatdırılmasının önəmini vurğulayan Yalçın Rəfiyev deyib: "İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin iqlim dəyişikliyinin mənfi təsirləri ilə bağlı ssenariləri hər il iqlim fəlakətləri ilə üst-üstə düşür. Son aylarda təkcə Karib dənizində Beverli qasırğasını, Hindistanda, Banqladeşdə, Nigeriyada, Çadda və ən son İspaniyada ölümcül daşqınları gördük. Gəlin, bu pilot layihəyə əməkdaşlıq və qətiyyət ruhu ilə yanaşaq ki, iqlim və inkişafla bağlı maliyyəni artıra bilək. COP29-un qlobal səyləri iqlim dəyişikliyi ilə mübarizəyə səfərbər etməkdə Paris Sazişinin effektivliyini vurğulayaraq, hamımızı bu məqamda qətiyyətli və dəqiq addımlar atmağa çağırıram".

Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin rəisi Elməddin Mehdiyev bildirib ki, ölkəmiz beynəlxalq cəmiyyətin etibarlı və məsuliyyətli üzvü kimi müxtəlif coğrafiyalarda davamlı inkişafın təşviqinə böyük əhəmiyyət verir, qlobal miqyasda hərtərəfli tərəqqinin stimullaşdırılması üçün beynəlxalq səylərə sadiq qalır.

E.Mehdiyev xatırladıb ki, Azərbaycanın müstəqilliyin ilk illərində üzləşdiyi münaqişənin ağır nəticələri, o cümlədən ərazilərimizin 20 faizinin işğalı və bir milyondan çox insanın məcburi köçkün vəziyyətinə düşməsi ölkənin sosial-iqtisadi vəziyyətinə sarsıdıcı təsir göstərib. Ancaq uğurlu daxili və xarici siyasət, davamlı tərəqqi və dinamik iqtisadi inkişaf nəticəsində Azərbaycan qarşıya qoyulmuş maneələri dəf edə bilib və uğurla donor ölkəyə çevrilib. Həmrəylik ruhu, qlobal rifah, eləcə də ölkələr və millətlər arasında dostluq münasibətlərinin gücləndirilməsinə töhfə vermək Azərbaycanın xarici siyasətinin ayrılmaz hissəsinə çevrilib.

# COP29-un həyəcan zəngi dünyanı sayıqlığa çağırır



**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) həlledici bir zamanda baş verir. COP29-da dünyanın hər yerindən olan liderlər və ekspertlərlə birgə iqlim dəyişikliyini azaltmaq və onlara uyğunlaşmaq, həmçinin karbon neytrallığı məqsədlərinə nail olmaq üçün davamlı həllər axtarırıq.**

Bakıda keçirilən COP29 Sammitində iştirak edən Monteneqro Prezidenti Yakov Milatoviç rəsmi sosial şəbəkə hesabındakı paylaşımında bildirib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası həlledici bir zamanda baş verir. Sessiyada dünyanın hər yerindən olan liderlər və ekspertlərlə birgə iqlim dəyişikliyini azaltmaq və onlara uyğunlaşmaq, həmçinin karbon neytrallığı məqsədlərinə nail olmaq üçün davamlı həllər axtarılır.

Monteneqro Prezidenti COP29 kimi mühüm sammitdə iştirakından məmnunluğunu da ifadə edib: "Mən davamlı inkişafa və iqlim dəyişikliyi ilə mübarizəyə sadiqliyimizi vurğulayıram. Xüsusən indi Monteneqro və bütün dünya getdikcə daha aydın nəticələrlə – ekstremal hava hadisələri, ekosistemlərə və yerli icmalara artan təzyiqlərə üzləşir. İqlim dəyişikliyinin mənfi nəticələri bütün dünyadakı icmalara getdikcə daha çox təsir edir və Monteneqro da istisna deyil".

Yakov Milatoviç COP29 çərçivəsində müxtəlif dövlətlərin liderləri ilə ölkələr arasında ikitərəfli əməkdaşlığı gücləndirmək məqsədilə görüşlər keçirdiyini, müzakirələrdə qarşıdakı dövrdə istifadə edilməli iqtisadi potensiala diqqət yetirildiyini bildirib. Deyib ki, ikitərəfli görüşlərdə dövlətlərarası münasibətləri gücləndirmək, eyni zamanda, iqtisadi əməkdaşlığa və investisiyalara xüsusi diqqət yetirməklə çoxsaylı sahələrdə əməkdaşlığı yaxşılaşdırmaq üçün ətraflı fikir mübadiləsi aparılıb.

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Azərbaycanın yaşıl potensialı təmiz enerjiyə çevrilir




(əvvəli 1-ci səhifədə)

Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev çıxışında hazırda ölkəmizdə bununla bağlı balanslaşdırılmış, sürətləndirilmiş və ambisiyalı ssenarilərin nəzərdən keçirildiyini bildirib. Onun sözlərinə görə, hər ssenari üzrə yaşıl hidrogendən ölkədaxili istifadə və ixrac üçün istiqamətlər, eləcə də tələbata uyğun bərpaolunan enerji gücünə dair qiymətləndirmələr aparılıb.

Diqqətə çatdırılıb ki, 2050-ci ilə qədər yaşıl hidrogenin istehsalı üzrə balanslaşdırılmış və sürətləndirilmiş ssenarilərə uyğun olaraq 9 qiqavat və 18 qiqavat həcmində bərpaolunan enerji qoyuluş gücü tələb olunur. 2060-cı ilə proqnozlaşdırılan ambisiyalı ssenaridə isə 30 qiqavat həcmində bərpaolunan enerji həcmlərinin quraşdırılması hədəflənir. Bu məqsədlə bərpaolunan enerji mənbələrinin quraşdırılmış gücü ilə bağlı hazırda araşdırmalar aparılmaqdadır. Bu hədəflərə nail olmaq üçün dənizdə külək enerjisindən istifadə ilə yanaşı, quruda hibrid şəkildə külək və günəş enerjisindən də istifadə olunması mümkündür. Azərbaycanda dənizdə külək enerjisinin iqtisadi potensialı 38 qiqavata qədər qiymətləndirilir ki, bu da Strateji Baxış sənədi ilə tam uyğunluq təşkil edir. Növbəti mərhələdə isə sözügedən sənədin tətbiqi planının hazırlanması nəzərdə tutulur.

Azərbaycanın hidrogen üzrə milli strateji Baxış Sənədi COP29 Prezidentliyi tərəfindən elan edilmiş Hidrogen Bəyannaməsinə və ölkəmiz tərəfindən həyata keçirilən yaşıl enerji dəhlizləri konsepsiyasına uyğundur. Sözügedən sənəd ölkəmizin hidrogendən istifadə ilə bağlı gələcək planlarını özündə tam əks etdirir.

Xatırladaq ki, Azərbaycanın hidrogen üzrə milli strateji Baxış Sənədi Energetika Nazirliyinin sədrliyi ilə əsas maraqlı tərəflərin, o cümlədən Ekologiya və Təbii Sərvətlər Nazirliyi, SOCAR, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Su Ehtiyatları Agentliyi və digər aidiyyəti qurumlardan ibarət işçi qrup tərəfindən hazırlanıb.

Yeri gəlmişkən, 2050-ci ilədək karbon emissiyalarını sıfıra endirməyi hədəfləyən Avropa ölkələri yaşıl keçid platformasının əsas istiqamətlərindən sayılan hidrogenin istehsalı, onun saxlanması və ixracına nail olunması sahəsində intensiv iş aparırlar. Hidrogen isə planetimizdə ən bol elementlərdən biri olmaqla yanaşı, təmiz yanacaq növü kimi getdikcə daha çox maraq kəsb edir. Qeyd edək ki, yaşıl hidrogen bərpaolunan enerjidən istifadə edilərək elektroliz nəticəsində əldə olunan enerji növüdür.

Mütəxəssislərin fikrincə, hidrogen istehsalında külək və günəş enerjisi kimi bərpaolunan enerjidən istifadə olunduğundan onun tərkibində heç bir istixana qazı emissiyası yoxdur. Eyni zamanda, hidrogen yüngül qaz olduğu üçün yanma zamanı ondan üç dəfə çox istilik almaq mümkündür. Təsadüfi deyil ki, bu sahədə potensialın yüksək olmasına və ekoloji təmizliyinə görə hidrogeni "gələcəyin yanacağı" adlandırırlar. Məlum olduğu kimi, hazırda istehsal olunan hidrogenin çox cüzi hissəsi, təqribən, 1 faizi yaşıl hidrogendir. Bununla belə, Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin məlumatına görə, 2050-ci ilə qədər enerji istehsalının 12 faizi hidrogenin payına düşəcək.

Dünyanın prioritet elan etdiyi yaşıl keçid platformasının fəal iştirakçısına çevrilmiş Azərbaycanın da bu sahədə potensial imkanları olduqca yüksəkdir. Təsadüfi deyil ki, Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən aparılan tədqiqatlar ölkəmizdə ekoloji cəhəfdən təmiz hidrogen istehsalının məqsədəuyğun olduğunu təsdiq edib. Bununla yanaşı, adıçəkilən bankın dəstəyi ilə Niderlandın tanınmış "Advision" şirkəti Azərbaycanın hidrogen potensialının qiymətləndirilməsi ilə bağlı təhlilini yekunlaşdırıb. Qurumun hesabatında ölkəmizin bu sahədəki potensial imkanları ilə bağlı müsbət məqamlar yer alıb.

Bütövlükdə isə, Azərbaycan böyük qaz yataqları, zəngin ehtiyatları hesabına yaşıl hidrogenə keçid baxımından yaxşı imkanlara malikdir. Hidrogenin istehsalı üçün isə ölkəmizdə yeni emal müəssisəsi tikilməlidir. Həmin müəssisənin günəş panellərindən və külək qurğularından alınan enerji hesabına fəaliyyət göstərəcəyi nəzərdə tutulur. Artıq ölkəmizdə hidrogen istehsalı üzrə pilot layihələrin hazırlanmasına başlanılıb.

# Enerji keçidi üzrə investisiya forumu

**Azərbaycan Respublikasının Energetika Nazirliyi və Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi tərəfindən regionda bərpaolunan enerjinin tətbiqini sürətləndirmək və yaşıl sənayeləşməni təşviq etmək məqsədilə Mərkəzi Asiyada enerji keçidi üzrə investisiya forumu keçirilib. COP29 çərçivəsində təşkil edilən müzakirədə Azərbaycanla yanaşı, Qazaxıstan, Qırğız Respublikası, Tacikistan, Özbəkistan və Birləşmiş Ərəb Əmirliklərindən olan nazirlər və nazir müavinləri iştirak ediblər.**



Energetika Nazirliyin məlumatına görə, forumda Mərkəzi Asiya ölkələrində artan enerji tələbatını ödəmək, enerji mənbələrinin müxtəlifliyini təmin etmək, iqtisadi artımı dəstəkləmək və iqlim məqsədlərinə nail olmaq üçün yaşıl enerjidən istifadəni artırmağın yolları müzakirə edilib. Bu məqsədlərə çatmaq istiqamətində "Orta Asiyada sürətləndirilmiş bərpaolunan enerji tərəfdaşlığı" adlı proqram təsis edilib. Sənəd Mərkəzi Asiya ölkələrinin potensialını səfərbər edərək regional əməkdaşlıq çərçivəsində investisiyaların genişləndirilməsini, regionlararası əlaqələrin gücləndirilməsini və sosial-iqtisadi faydaların artırılmasını hədəfləyir.

Energetika naziri Pərviz Şahbazov bildirib ki, Mərkəzi Asiya üzrə enerji keçidi üzrə investisiya forumu regionda dayanıqlı enerji transformasiyasını sürətləndirmək, bərpaolunan enerji sahəsində əməkdaşlığı dərinləşdirmək və strateji layihələrin reallaşdırılması üçün investorları cəlb etmək baxımından mühüm platformadır. Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə yaşıl enerji keçidində güclü əməkdaşlığa böyük önəm verdiyini vurğulayan nazir deyib ki, bu çərçivədə ölkələrimizin enerji təhlükəsizliyini və enerji təchizatında strateji mövqeyini gücləndirmək üçün Mərkəzi Asiya – Azərbaycan Yaşıl Enerji Dəhlizinin qurulması istiqamətində işbirliyinə başlanılıb: "COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında imzalanan yaşıl enerji tərəfdaşlığı sazişi, Səudiyyə Ərəbistanın üçtərəfli layihəyə qoşulması bu istiqamətdə atılan strateji addımlardan biridir və beynəlxalq enerji əməkdaşlığına, yaşıl investisiyaların cəlbinə güclü təkan verəcək. Biz bu forum vasitəsilə bütün investorları və potensial tərəfdaşları bu tarixi dəyişimin bir hissəsi olmağa dəvət edirik".

IRENA-nın baş direktoru Francesco La Camera isə çıxışında qeyd edib ki, Mərkəzi Asiyanın zəngin bərpaolunan enerji resursları, strateji coğrafi mövqeyi və qonşu regionları birləşdirən yaşıl enerji dəhlizinin yaradılması istiqamətində davam edən səyləri regionun dəyişən enerji mənzərəsinin önündə yer almaq üçün mühüm imkanlar yaradır. Onun sözlərinə görə, "Orta Asiyada sürətləndirilmiş bərpaolunan enerji tərəfdaşlığı" proqramı regionun öz potensialını səfərbər etməsi üçün hərtərəfli, ölkələrin rəhbərlik etdiyi, ambisiya, planlaşdırma və icranı birləşdirən mühüm bir fürsət təqdim edir.

Qeyd edək ki, iki gün davam edəcək forumda Mərkəzi Asiyada enerji keçidinə dair investisiya və maliyyə siyasətləri, maliyyə ehtiyacları və prioritetləri, iqlim maliyyəsi üçün çərçivələr və digər maliyyə alətlərinə dair müzakirələr aparılacaq. Forum çərçivəsində, həmçinin enerji keçidlərinə dair maliyyələşdirmə dialoqu, IRENA-nın Mərkəzi Asiya üçün layihə asanlaşdırma alətləri üzrə interaktiv sessiyası və Mərkəzi Asiya üzrə regional seminar keçiriləcək. Həmin tədbirlərdə iştirakçılara maliyyələşdirmə sahəsində innovativ həll yolları və ən yaxşı təcrübələr haqqında geniş məlumatlar təqdim ediləcək.

# İqlim konfransında Ermənistanın ekoloji cinayətləri pislənib



**"Environmental Protection First" Koalisiyası COP29 çərçivəsində "Ermənistanın dağ-mədən fəaliyyətinin Cənubi Qafqazda ətraf mühitə ekoloji təsirləri" mövzusunda yan tədbir keçirib.**

Koalisiyanın həmtəsisçisi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədov bildirib ki, Ermənistan hakimiyyəti dağ-mədən fəaliyyətinin ekoloji fəsadları mövzusunda hələ də susur. Ermənistan rəhbərliyinin yerli və xarici QHT-lərin müraciətlərinə cavab vermədiyini diqqətə çatdıran şura sədrinin sözlərinə görə, bu ölkə beynəlxalq ekoloji norma və standartlara məhəl qoymayaraq dağ-mədən fəaliyyətini davam etdirir, müəssisələrdə Azərbaycan və beynəlxalq təşkilatların ekoloji monitorinqlər aparılmasına şərait yaratmır.

Koalisiya üzvləri bir daha Ermənistanın dağ-mədən sənayesində işləyən şirkətləri Ətraf Mühitin Qiymətləndirilməsi Sənədlərini ictimailəşdirməyə çağırıb. Xüsusi vurğulanıb ki, bu sənədlərin ictimaiyyətdən gizlədilməsi görünməmiş hadisədir.

Koalisiyaya daxil olan "Azərbaycan Kartoqrafları" İctimai Birliyi üç dildə – Azərbaycan, ingilis və erməni dillərində hazırlanmış "Ermənistanın mineral xammal resursları" adlı xəritə üzərində mövzunu auditoriyaya izah edib. Xəritədə Ermənistanın dağ-mədən sənayesi fəaliyyətinin mənfi ekoloji təsirlərini ifşa etmək üçün mühüm məlumatlar əks olunub.

"Azərbaycan Kartoqrafları" İctimai Birliyinin sədri Müqabil Bayramov isə bildirib ki, Ermənistanın ətraf mühitə ən çox zərər vuran dağ-mədən sənayesi müəssisələrini bilərəkdən əsasən Qərbi Zəngəzur bölgəsinə – Azərbaycan Respublikası ilə həmsərhəd, transsərhəd çaylara yaxın ərazilərə cəmləşdirdiyini xəritədən aydın göründüyünü diqqətə çatdırıb.

Tədbirdə Ermənistandan ətraf mühitə ziyan vuran fəaliyyəti dərhal dayandırmaq, beynəlxalq konvensiyalardan irəli gələn öhdəliklərini yerinə yetirmək tələb olunub.

# OPEC ilə enerji təhlükəsizliyi müzakirələri



**Bakıda keçirilən COP29 çərçivəsində Azərbaycan OPEC Beynəlxalq İnkişaf Fondu ilə enerji təhlükəsizliyi və əməkdaşlıq perspektivlərini müzakirə edib. Bu barədə İqtisadiyyat Nazirliyi məlumat yayıb.**

Bildirilib ki, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun OPEC Beynəlxalq İnkişaf Fondunun prezidenti Əbdülhəmid Əlxəlifə ilə görüşündə tərəflər qarşılıqlı əlaqələrin təşviqi, bərpaolunan enerji və özəl sektorun maliyyələşdirilməsinə dair layihələr çərçivəsində birgə fəaliyyət barədə fikir mübadiləsi aparıblar.

Görüşdə iqlim fəaliyyətində enerjinin inklüziv şərtlər əsasında keçidinin vacibliyi vurğulanıb, davamlı inkişaf, iqtisadi şaxələnmə istiqamətində prioritetləri müzakirə edilib.

# COP29 iqlim prinsiplərini platformaya çevirir

**Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirak edən ABŞ Prezidentinin köməkçisi və Ağ Evin milli iqlim müşaviri Ali Zaidi çox qısa müddət ərzində COP29-un, həqiqətən, vacib və dialoqu asanlaşdıra biləcək şəkildə təşkil edildiyinin şahidi olduğunu bildirib.**

Onun sözlərinə görə, 29-cu iqlim konfransı artıq dünyanın qazıntı yanacaqlarından uzaqlaşmağa başladığını, bunu açıq şəkildə ifadə edən Dubay konsensusunda formalaşmış inamın daha da gücləndiyini və sessisiyanın nüfuzlu bir platformaya çevrildiyini göstərir: "Ümid edirəm ki, bu, Dubayda qarşıya qoyulan bərpaolunan enerji mənbələrini 3 dəfə artırmaq hədəflərində irəliləyişin qeydə alınacağı COP tədbiri olacaq. Əminəm ki, dünya vacib ambisiyalar ətrafında birləşərək irəli addımlaya biləcək".



**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**

COP29 Baku Azerbaijan COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024 COP29 Baku Azerbaijan

# COP29-un 3 önəmli enerji təşəbbüsü elan edildi



**(əvvəli 1-ci səhifədə)**

Nazir deyib ki, bu təşəbbüslər Azərbaycanı bərpaolunan enerjinin inkişafı və ixracında lider mövqeyə yüksəltməklə yanaşı, genişmiqyaslı ötürmə, uzaq potensial enerji mənbələrinin istehlak mərkəzləri ilə əlaqələndirilməsi, enerji təchizatı ilə tələbat arasında tarazlığın təmin edilməsi, eləcə də böyük həcmdə yaşıl enerji güclərinin şəbəkəyə inteqrasiyası ilə qlobal miqyasda təmiz enerjinin inkişafını sürətləndirmək üçün unikal imkanlar yaradır: “COP29 hər birimizi bu öhdəliklərə qoşulmağa, enerji keçidimizi və iqlim fəaliyyətimizi gücləndirməyə və dünyamız üçün davamlı bir gələcək qurmaq naminə birliyə çağırır. Gəlin, COP29-u əlamətdar bir dönüş nöqtəsinə çevirək və qlobal iqlim və enerji səylərimizi yeni zirvələrə qaldıraq”.

Xatırladaq ki, COP29 çərçivəsində qlobal səviyyədə enerji sektorunun karbonsuzlaşdırılması səylərinə dəstək məqsədilə hazırlanmış və qlobal iqlim hədəflərinə uyğun olaraq istixana qazı tullantılarının azaldılmasını hədəfləyən bu təşəbbüslər bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən IRENA, IEA, UNIDO, UNECE və UNESCAP ilə əməkdaşlıq çərçivəsində formalaşdırılıb.

Nazirlər görüşündə ABŞ-nin energetika naziri Cennifer Qranholm, Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson da daxil olmaqla 20-dən çox ölkə, 16 beynəlxaq təşkilat və maliyyə institutları təmsil olunub.

**COP29-un “Maliyyə, İnvestisiya və Ticarət Günü”ndə Azərbaycan Beynəlxalq Bankı ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında saziş imzalanıb. Sənədə ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimov və COP29-da iştirak üçün ölkəmizdə səfərdə olan AYİB prezidenti Odile Renaud-Basso imza atıblar.**

# ABB və AYİB-nin 50 milyon dollarlıq anlaşması




Qeyd edək ki, 50 milyon dollarlıq saziş ticarətin maliyyələşdirilməsi sahəsində imkanların genişləndirilməsi məqsədi daşıyır. Belə bir razılaşma sənədi uzunmüddətli fasilədən sonra AYİB-in ölkəmizin maliyyə bazarlarına kifayət qədər iri məbləğdə investisiya ilə yenidən qayıdışıdır. Bu da sektora etimadın artmasından, Azərbaycanın bank sektorunda korporativ idarəetmənin inkişafından, eləcə də ABB ilə tərəfdaşlıq perspektivlərinə olan yüksək inamdan irəli gəlir.

AYİB-lə ticarətin maliyyələşdirilməsi üzrə belə bir tərəfdaşlıq ABB-nin real sektoru maliyyələşdirmək imkanlarını artıracaq, bankın beynəlxalq əməliyyatlarını dəstəkləyəcək. Eyni zamanda, bu addım idxal-ixracla məşğul olan iş adamları üçün maliyyə alətlərinin əlçatanlığını artırmaqla yanaşı, kiçik və orta sahibkarların qlobal bazarlarda ticarət imkanlarını da genişləndirəcək.

Azərbaycan Beynəlxalq Bankı İdarə Heyətinin sədri Abbas İbrahimov bu sazişin ölkəmizdə biznesin dayanıqlı inkişafına, yerli sahibkarların beynəlxalq ticarətdə davamlı şəkildə iştirakına, dolayısı ilə insanlarımızın rifahına əhəmiyyətli töhfə olduğunu bildirib: “Biz ətraf mühit və gələcəklə bağlı məsuliyyətimizi öndə tutmaqla bu maliyyə resurslarından daha çox yaşıl iqtisadiyyat yönümlü layihələrin dəstəklənməsində istifadə etməyə çalışacağıq. Saziş çərçivəsində, ilk növbədə, karbon izlərini azaldan və yaşıl ticarət təcrübələrinə sərmayə qoyan layihələr dəstəklənəcək”.

Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti xanım Odile Renaud-Basso isə deyib: “Biz əminik ki, ticarətin maliyyələşdirilməsi xətti Azərbaycanın xarici ticarətini dəstəkləməklə yanaşı, ölkənin maliyyə sektoruna, onun müştərilərinə əhəmiyyətli dəyər qatacaq, banka yaşıl əməliyyatlarla bağlı məsləhət xidmətləri verəcək”.




# Su ehtiyatlarımız təmiz layihələrə meydan açır

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və SOCAR Green arasında ölkənin su ehtiyatlarının idarə olunmasında enerji səmərəliliyinin artırılması və bərpaolunan enerji layihələrinin tətbiqinin genişləndirilməsi məqsədi ilə Anlaşma memorandumu imzalanıb.**

Agentliyin mətbuat xidmətindən redaksiyamıza verilən məlumata görə, memorandum su ehtiyatlarının səmərəli istifadəsində enerji istehlakı üzrə diaqnostikanın aparılması, ixtisaslaşmış dəstək üçün texniki məsləhətçilərin cəlb edilməsi və bərpaolunan enerji təşəbbüslərinin həyata keçirilməsi üçün yol xəritəsinin hazırlanması ilə bağlı əməkdaşlığı nəzərdə tutur.

Memorandum, həmçinin Azərbaycanın milli, davamlı və dayanıqlı gələcək hədəflərini dəstəkləyəcək yeni layihələrinin tədqiqində hər iki qurumun ortaq marağını vurğulayır.

# “Yaşıl” rəqəmsal texnologiyalara sənayedə yaşıl işıq!

**Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev COP29 çərçivəsində “Yaşıl rəqəmsal fəaliyyət treki”nin yüksək səviyyəli açılış sessiyasında iqlim dəyişikliyi ilə mübarizədə güclü vasitə sayılan rəqəmsallaşmanın potensialından tam yararlanmağın zəruri olduğunu, bunun dayanıqlı infrastrukturun inkişafına və ətraf mühitin yaxşılaşmasına müsbət təsir göstərdiyini bildirib: “Yalnız rəqəmsallaşma vasitəsilə davamlı gələcəyi gerçəkləşdirmək üçün lazımi sürətə, dəqiqlik və çevikliyə nail ola bilərik”.**



Müzakirələrdə texnologiya sektorunda emissiyaların azaldılmasının zəruriliyi və ekoloji problemlərin həllində, eləcə də hamı üçün dayanıqlı gələcəyin qurulmasında rəqəmsal həllərin oynaya biləcəyi mühüm rolu diqqətə çatdırılıb. Eyni zamanda, COP29-da “Yaşıl rəqəmsal fəaliyyət treki”nin fəal iştirakı, mənalı dialoqu təşviq etmək və birgə iqlim fəaliyyətində innovativ ideyaları canlandırmaq üçün nəzərdə tutulduğu xatırladılıb.

Qeyd olunub ki, müzakirələr və seminarlar silsiləsi davamlılıq standartlarının əhəmiyyəti, “Xalis sıfır” İKT sektoruna aparan yol, iqlim dəyişikliyi ilə mübarizə və erkən xəbərdarlıq sistemləri üçün süni intellektdən istifadə edilməsinə yönələcək.

Yeri gəlmişkən, yaşıl rəqəmsal fəaliyyət təşəbbüsü COP29 Sədrliyinin fəaliyyət gündəliyinə daxil olan 14 qlobal təşəbbüsdən biridir. Bu təşəbbüs tək bir hadisə deyil, həm də innovasiya və dayanıqlığa əsaslanan rəqəmsallaşmanın gələcək COP-larda prioritet olaraq qalmasını gerçəkləşdirərək davamlılığa yönələn çağırışdır. COP29 çərçivəsində təşəbbüsün yekun tədbiri – yaşıl rəqəmsal fəaliyyət üzrə yüksək səviyyəli “dəyirmi masa” COP29 çərçivəsində ilk Rəqəmsallaşma Günündə – noyabrın 16-da keçiriləcək. “Dəyirmi masa”da dünyanın bir sıra ölkələrindən dövlət və özəl sektor nümayəndələri, o cümlədən İKT sahəsi üzrə qlobal miqyasda aparıcı tərəfdaşlar iştirak edəcəklər.

“Dəyirmi masa”da bir sıra kritik mövzular, o cümlədən rəqəmsal innovasiyanın iqlim strategiyalarına inteqrasiyası, iqlim monitorinqinin rəqəmsal alətlərlə artırılması, rəqəmsal inklüzivliyin təşviqi və rəqəmsal texnologiyaların ətraf mühitə təsirlərinin azaldılması müzakirə ediləcək. Sonda dayanıqlı və yaşıl dünya naminə bütün maraqlı tərəflərin iştirakı ilə yekun sənəd – yaşıl rəqəmsal fəaliyyət üzrə Bəyannamə” qəbul ediləcək.

yaşıl rəqəmsal fəaliyyət üzrə Bəyannamə rəqəmsal texnologiyaların iqlim dəyişikliyi ilə mübarizədəki potensialını tanımaqla yanaşı, dayanıqlı və inklüziv praktikaların təşviqinə də əhəmiyyətli bir addımdır.

Sessiya Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, COP29 Sədrliyi, Beynəlxalq Telekommunikasiya İttifaqı və BMT-nin Rəqəmsal Texnologiyalar Agentliyi tərəfindən təşkil olunub.

# “AzərEnerji” ilə İtaliya şirkəti arasında memorandum imzalanıb

**COP29 çərçivəsində İtaliyanın “Ansaldo Energia” şirkətinin baş icraçı direktoru Fabrizio Fabbrinin başçılıq etdiyi nümayəndə heyəti “AzərEnerji” ASC-nin “yaşıl zona”da yerləşən pavilyonunda olublar. İtaliyalı qonaqlarla “AzərEnerji” ASC-nin rəhbəri Baba Rzayev arasında görüş olub.**




Daha sonra “AzərEnerji” ilə “Ansaldo Energia” arasında dekarbonizasiya, kadr hazırlığı, karbon tutma, yaşıl hidrogen, kiçik modul reaktorları və başqa istiqamətləri əhatə edən anlaşma memorandumu imzalanıb.

“AzərEnerji” ilə “Ansaldo Energia” şirkəti arasında elektrik enerjisinin istehsal sistemləri, yaşıl hidrogen istehsalına dair təcrübə mübadiləsi ilə bağlı anlaşma memorandumu "yaşıl enerji" keçidinə mühüm töhfə verəcək.

# Bakı Limanı Günəşdən enerji alacaq

**Azərbaycanın COP29-dakı pavilyonunda “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC və Malayziya kapitallı “Tiza Green Energy” MMC arasında çərçivə sazişi imzalanıb. Saziş yaşıl texnologiyaların və bərpaolunan enerji mənbələrinin inkişafı üzrə əməkdaşlığı, xüsusilə də Ələt limanında günəş panellərinin quraşdırılmasını nəzərdə tutur.**



İmzalanma mərasimində Bakı Limanının baş direktoru Taleh Ziyadov sözügedən sənədin yaşıl keçid üzrə kompleks həllər sahəsində çox mühüm addım kimi dəyərləndirib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# IDEA İctimai Birliyinin ekoloji layihələri

**Noyabrın 14-də IDEA İctimai Birliyi və "Clean Air Fund" təşkilatının tərəfdaşlığı ilə COP29-un Azərbaycan pavilyonunda "Təmiz havanın uşaq və yeni doğulan körpələrin sağlamlığı üçün əhəmiyyəti" mövzusunda panel müzakirəsi təşkil edilib.**



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva aparılacaq müzakirələrin uşaqların rifahına verə biləcəyi töhfəni qeyd edib. Hava çirklənməsi probleminin nəticəsi olaraq hər il milyonlarla insanın həyatını itirdiyini vurğulayan Leyla Əliyeva qeyd edib ki, adıçəkilən problemin aradan qaldırılması üçün qlobal həmrəylik və dayanıqlı texnologiyalardan istifadə əhəmiyyətli rol oynayır.

IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən müxtəlif layihə və tədbirlər barədə də danışan Leyla Əliyeva ötən 13 il ərzində təşkilatın təşəbbüsü ilə 5 milyondan çox ağacın əkildiyini qeyd edib. Bununla bərabər, "Məktəb bağları" layihəsi çərçivəsində Bakı şəhəri və bölgələrdə yerləşən 300 məktəbin həyətində 20 mindən çox ağacın əkildiyi panel müzakirələri iştirakçılarının diqqətinə çatdırılıb.

İclasda səhiyyə naziri Teymur Musayev, CAF-ın baş icraçı direktoru Jane Burston, BMT-nin Uşaq Fondunun (UNICEF) Sağlam Uşaqlar üçün Sağlam Ətraf Mühit Qlobal Proqramının rəhbəri Abheet Solomon, Botnar Fondunun vitse-prezidenti, "Partnership for Maternal, Newborn & Child Health" təşkilatının İdarə Heyətinin üzvü Flavia Bustreo və gənc ətraf mühit fəalı Francisco Vera iştirak ediblər.

*




**Həmin gün Leyla Əliyeva Kəmər və Yol Təşəbbüsü Yaşıl İnkişaf Koalisiyası (KYTYİK), Çin Ətraf Mühit və İnkişaf üzrə Beynəlxalq Əməkdaşlıq Şurası və Çin Qitələrarası Kommunikasiya Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutan "İqlim dəyişikliyi üzrə Cənub-Cənub əməkdaşlığı və yaşıl inkişaf: keyslər və təcrübələr" panel müzakirəsində də iştirak edib.**

Leyla Əliyeva Qlobal Cənub ölkələri arasında dayanıqlı inkişaf və ətraf mühitin mühafizəsi kimi sahələrdə əməkdaşlığın əhəmiyyətini və mövcud imkanları qeyd edib. O vurğulayıb ki, Azərbaycan bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi istiqamətində mühüm addımlar atır.

Sonra Leyla Əliyeva IDEA İctimai Birliyinin ətraf mühitin mühafizəsi, ekoloji balansın təmin olunması, eləcə də iqlim dəyişmələri ilə mübarizə sahəsində gördüyü işlər barədə məlumat verib. O, iqlim dəyişmələri ilə mübarizə və yaşıl inkişaf naminə qlobal həmrəylik və əməkdaşlığın rolunu xüsusi vurğulayıb.

*

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva dünən "Ecumene" Qlobal Forumunun COP29 çərçivəsində təşkil olunan plenar iclasında da çıxış edib.**




COP29-un qlobal ekoloji problemlərin həllində rolu barədə danışan Leyla Əliyeva qəbul ediləcək qərarların dayanıqlı gələcək naminə beynəlxalq həmrəyliyin möhkəmləndirilməsinə töhfə verəcəyinə inamını ifadə edib. O, Azərbaycanda su resurslarının dayanıqlı idarə edilməsinə dair bir sıra məqamlara toxunub, ölkəmizdə həyata keçirilən bir sıra tədbirlər, yaxın illər ərzində yaradılması nəzərdə tutulan 10 su anbarı barədə məlumat verib.

Xəzər dənizində su səviyyəsinin son illər ərzində endiyini qeyd edən IDEA rəhbəri Xəzərdə biomüxtəlifliyin qorunmasının əhəmiyyətini də vurğulayıb, suitilərin populyasiyasının XX əsrin əvvəli ilə müqayisədə 6 dəfədən çox endiyini bildirib. Leyla Əliyeva qeyd edib ki, "Blue Marine Foundation" təşkilatı ilə əməkdaşlıq çərçivəsində Qızılağac Milli Parkı Xəzər dənizində ilk dənizkənarı mühafizə olunan ərazi kimi seçilib. "Zəngin hövzələr" layihəsi çərçivəsində müxtəlif növ milyonlarla balıq körpəsi ölkə ərazisində yerləşən bir sıra su hövzələrinə buraxılıb. "Bir damcı" layihəsinin nəticəsi olaraq ictimaiyyətə suyun səmərəli istifadəsinin əhəmiyyəti barədə geniş məlumat verilib.

İclasda BMT Baş katibinin iqlim fəaliyyəti və ədalətli keçid üzrə xüsusi müşaviri Selvin Çarlz Hart, Dünya İqtisadiyyatının Təhlili Mərkəzinin direktoru Ramon Piks-Madruqa, BMT-nin Ətraf Mühit Proqramının keçmiş icraçı direktoru Erik Solheym, Rusiya Federasiyası Prezidentinin köməkçisi, Prezidentin iqlim məsələləri üzrə xüsusi nümayəndəsi Ruslan Edelgeriyev, Çeçenistan Respublikası başçısının və hökumətinin administrasiyası rəhbərinin birinci müavini – Çeçenistan Respublikasının naziri Xədicat Kadırova və Ümumrusiya təbiətin mühafizəsi cəmiyyətinin Mərkəzi Şurasının sədri Vyaçeslav Fetisov iştirak ediblər.

*

**Dünən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva "Fighting for International Nautical Species" (FINS) təşəbbüsünün pavilyonunu ziyarət edib.**



Pavilyon dəniz canlılarının qorunması, eləcə də bu sahədə beynəlxalq səylərin artırılmasının əhəmiyyətinə həsr olunub. FINS pavilyonunda həyata keçirilən silsilə tədbirlər çərçivəsində Leyla Əliyeva "Seaspiracy" sənədli filminin nümayişində iştirak edib. Sözügedən filmdə balıqçılıq sənayesinin ətraf mühitə, ekosistemlərə və dəniz heyvanlarına təsirinə dair məlumat verilir və dayanıqlı balıqçılığın yaratdığı imkanlar qeyd olunur.

"Seaspiracy" layihəsinin rəhbəri İzabella Kavalletti iştirakçıları maraqlandıran sualları cavablandırıb.

**XQ**

# İqlim savaşının hüquqi hədəfləri

**Bakıda COP29 çərçivəsində müxtəlif ölkələrin hüquq-mühafizə orqanlarının iştirakı ilə "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiya keçirilib. Tədbirdə Baş prokuror Kamran Əliyev, COP29-un Prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Baş nazirinin müavini, daxili işlər naziri Şeyx Saif bin Zayed əl-Nəhyan və digər rəsmilər iştirak ediblər.**





Azərbaycan Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsinin təşkil etdiyi, həmçinin BƏƏ Daxili İşlər Nazirliyinin həmsədri olduğu sessiyada ölkə rəsmiləri ekoloji cinayətlər üzrə aparılan tədbirlər barədə məlumat veriblər.

K.Əliyev və M.Babayev Azərbaycanda hüquq-mühafizə orqanlarının ekoloji cinayətlərə qarşı mübarizəsinə toxunublar. Rusiyanın Baş prokuroru İqor Krasnov ölkəsinin ekoloji hadisələrlə bağlı gördüyü işlər barədə məlumat verib, hüquq-mühafizə orqanlarının birgə səylərinin vacibliyi bildirilib. Braziliyanın Baş prokuroru Hindenburq Çatebriand bildirib ki, ölkəsi də iqlim dəyişikliyindən əziyyət çəkir. O, ətraf mühitin qorunması, bu məqsədlə təşəbbüslərin irəli sürülməsinə töhfə vermək üçün çağırış edib. Keniyanın Baş prokuroru, Afrika Prokurorlar Assosiasiyasının Prezidenti Renson İnqonqa ölkəsində müşahidə edilən iqlim dəyişikliyi ilə bağlı problemlərdən danışıb. "Interpol"un rəhbəri Əhməd Nasir əl-Rəisi ətraf mühitin qorunması üçün qlobal tədbirləri gücləndirməyin əhəmiyyətini vurğulayıb, hüquq-mühafizə orqanlarının bu işdəki rolundan bəhs edib. Avropa Şurasının İnsan hüquqları və qanunun aliliyi üzrə direktoru Gianluka Esposito çıxışında ekoloji cinayətin bir ölkəyə deyil, bütün dünyaya təsir göstərdiyini deyib. Ona görə də qurumların əməkdaşlığı vacibdir.

Baş prokuror Kamran Əliyev sonda bütün tədbir iştirakçılarına təşəkkür edib.

**XQ**

# COP29-da diplomatik görüşlər

**Xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Maldiv Respublikasının xarici işlər naziri Abdulla Xəlil ilə görüşüb.**

Bildirilib ki, görüş zamanı Azərbaycan və Maldiv arasında bir sıra, o cümlədən iqtisadi, investisiyalar, turizm, humanitar və s. sahələr üzrə əməkdaşlıq perspektivləri, habelə COP29 sədrliyimizdən irəli gələn məsələlər müzakirə edilib. Nazir Ceyhun Bayramov COP29 çərçivəsində Maldiv Respublikasından ölkəmizə yüksəksəviyyəli nümayəndə heyətinin səfərinin əhəmiyyətini qeyd edərək bu kimi təmasların ikitərəfli və çoxtərəfli əməkdaşlıq perspektivlərinin müzakirəsi baxımından vacib olduğunu diqqətə çatdırıb.

Nazir Abdulla Xəlil Azərbaycanı COP29-a sədrliyi münasibətilə təbrik edib, ölkəmizin iqlim dəyişikliyi ilə mübarizə səylərinə rəhbərliyində uğurlar arzu edib.

Sonra nazirlər arasında "Azərbaycan Respublikası Hökuməti ilə Maldiv Respublikası Hökuməti arasında diplomatik, xidməti və rəsmi pasport sahiblərinin qarşılıqlı viza tələbindən azad edilməsi haqqında Saziş" və "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Maldiv Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun imzalanması baş tutub.

*

**Xarici işlər naziri Ceyhun Bayramov COP29 çərçivəsində NATO Baş katibinin innovasiya, hibrid və kiber-məsələlər üzrə köməkçisi Jan-Şarl Ellermann-Kinqomb ilə də görüşüb.**

Söhbət zamanı Azərbaycan və NATO arasında mövcud tərəfdaşlıq məsələləri, COP29 sədrliyimiz çərçivəsində əməkdaşlıq perspektivləri müzakirə olunub. Nazir Ceyhun Bayramov bu il ölkəmizlə NATO arasında əməkdaşlığın əsasını qoyan "Sülh Naminə Tərəfdaşlıq" Proqramının 30 illiyinin qeyd edildiyini, bu çərçivədə qarşılıqlı əməkdaşlıq şəraitində bir sıra birgə layihələrin həyata keçirildiyini məmnunluqla qeyd edib.

COP29 sədrliyimiz çərçivəsində iqlim fəaliyyətinin irəlilədilməsi istiqamətində NATO ilə əməkdaşlıq etməyə hazır olduğumuz diqqətə çatdırılıb. Qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi də aparılıb.

**XQ**

# Heydər Əliyev Mərkəzində ekoloji sərgilər

**Heydər Əliyev Mərkəzində ətraf mühitin qorunmasına çağırış edən MAMA "Ana təbiət" və "Öz töhfəni ver!" sərgiləri açılıb. Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və ailə üzvləri iştirak ediblər.**



COP29 günlərində fəaliyyətə başlayan MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsinin ideya müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevadır. Ekspozisiya IDEA İctimai Birliyi və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə təqdim edilir. Ətraf mühitin mühafizəsi mövzusunda açılan "Öz töhfəni ver!" sərgisini isə Birləşmiş Millətlər Təşkilatının Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovaya və IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyevanın birgə təşəbbüsü ilə Heydər Əliyev Mərkəzi və İsveçrə Qadın və Gücləndirmə Assosiasiyası təşkil edib.

Açılışda çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva nümayiş olunan əsərlərin izləyicilərə müsbət enerji verəcəyinə ümidvar olduğunu bildirib. O, sərginin ərsəyə gəlməsində iştirak edənlərə təşəkkür edib. Leyla Əliyeva ölkəmizin ev sahibliyi etdiyi COP29-da Azərbaycanda aparılan işlər nəticəsində bir çox müsbət nəticələrin əldə olunacağına inamını da ifadə edib.

Heydər Əliyev Fondunun vitse-prezidenti son dövrlərdə planetimizdə iqlim dəyişikliyi nəticəsində meydana gələn problemlərdən bəhs edib, hava, torpaq, suyun çirklənməsinin bir sıra mənfi təsirlərindən danışıb. O, 2011-ci ildə təsis edilmiş IDEA İctimai Birliyinin fəaliyyətinin məhz ətraf mühit problemlərinin həllinə yönəldiyini də qeyd edib.

Türkiyəli rəssam Seval Özcan möhtəşəm beynəlxalq sərginin təşkilinə görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya dərin minnətdarlığını bildirib. Birləşmiş Millətlər Təşkilatının Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovaya tədbir iştirakçılarına videomüraciətində iqlim yaşıl dünyaya nail olmaq məqsədilə göstərdiyi qlobal səylərə, iki layihənin ərsəyə gəlməsinə görə Leyla Əliyevanın rəhbərliyi ilə IDEA İctimai Birliyinə, həmçinin Heydər Əliyev Fonduna və İsveçrə Qadın və Gücləndirmə Assosiasiyasına təşəkkürünü bildirib.

Sonra qonaqlar MAMA "Ana təbiət" və "Öz töhfəni ver!" sərgilərinə baxış keçiriblər. Heykəltaraş Ömər Eldarov sərginin çoxşaxəli olduğunu, bütün növ sənət nümunələrini əhatə etdiyini deyib. O, sərgidə həm təbiətin gözəlliyinin nümayiş olunduğunu, həm də onu qorumaq üçün çağırışların edildiyini diqqətə çatdırıb.

MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsində Azərbaycan da daxil olmaqla, 28 ölkədən 127 əsər təqdim olunur. Öz töhfəni ver!" sərgisi isə ətraf mühitin mühafizəsi, ekoloji maarifləndirmə və ekomədəniyyətin təbliğinə həsr olunub. Layihə insanların ekoloji maarifləndirilməsini artırmağa, uşaq və yeniyetmələri ekoloji gündəliyə cəlb etməyə, onların ekoaktivliyini populyar formatlarda dəstəkləməyə hədəflənib.

Sərgi üç hissədən ibarətdir.

Xatırladaq ki, BMT ilə əməkdaşlıq çərçivəsində 2022-ci ilin iyununda qurumun Cenevrədəki bölməsində "Mənim dənizlərim, mənim okeanlarım" , 2022-ci ilin oktyabrında isə Bakıda Heydər Əliyev Mərkəzində "Çağırışın 17 siması" fotosərgiləri təşkil edilib.

**XQ**

# YAP nümayəndə heyəti Çində

**Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Çinə səfəri çərçivəsində noyabrın 15-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin Altıncı Departamentinin direktoru xanım Van Min ilə görüş keçirilib.**



Görüşdə Van Min strateji tərəfdaşlıq səviyyəsinə yüksələrək keyfiyyətcə yeni mərhələyə qədəm qoyan Çin–Azərbaycan münasibətlərinin nümunəvi xarakter daşıdığını, ölkələr və partiyalararası çoxşaxəli əlaqələrin müsbət dinamikaya malik olduğunu və parlaq perspektivlər vəd etdiyini bildirib.

Tahir Budaqov Azərbaycan ilə Çinin diplomatik əlaqələrinin mövcud olduğu 30 ildən artıq müddətdə ikitərəfli qaydada və beynəlxalq platformalar çərçivəsində münasibətlərin uğurla inkişaf etdiyini, əhəmiyyətli nailiyyətlər qazanıldığını söyləyib. O, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri olan Çinin Azərbaycanın beynəlxalq hüquq normalarına əsaslanan haqlı və ədalətli mövqeyinə birmənalı dəstəyinin xalqımız tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Həmin gün YAP nümayəndə heyəti "Qlobal sivilizasiya təşəbbüsünün həyata keçirilməsi" mövzusunda keçirilən tədbirdə də iştirak edib.

**XQ**




16 Noyabr Beynəlxalq Tolerantlıq Günüdür

# Azərbaycan multikultural dünya mərkəzidir

**“Dini etiqad azadlığı haqqında” Qanun Azərbaycanın tolerant bir dövlət olduğunu ehtiva edən mühüm dövlət sənədidir. Bu, ölkəmizdə İslam və başqa dinlərə aid ziyarətgahların, tarixi memarlıq abidələrinin bərpasına, milli-mənəvi dəyərlərin qorunmasına ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin verdikləri böyük dəyərin bariz nümunəsidir.**



Ümummilli lideri 1994-cü il avqustun 26-da Təzəpir məscidində keçirilən Məhəmməd Peyğəmbərin mövludu mərasimində demişdir: “Biz bir dövlət kimi Azərbaycan Respublikasında, müstəqil Azərbaycanda hər bir insanın sərbəst olaraq öz dini adət-ənənələrinə xidmət və onlardan istifadə etməsinə bütün imkanları yaradacağıq”. Həqiqətən də, müstəqillik dövründə müsəlmanlarla yanaşı, digər təbəqələrin də rahat şəkildə ibadəti üçün hər cür şərait yaradılmış, yetərincə məscid, kilsə və sinaqoqlar tikilmişdir.

“Bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik” – fikrini hakimiyyətin prinsiplərindən birinə çevirən Ulu öndər dini dəyərlərin insanları geriyə deyil, daha da irəliyə aparmasının vacibliyinə diqqəti cəlb etmişdir.

Ümummilli lider 2001-ci ilin noyabrında Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının I qurultayındakı çıxışında bu barədə deyib: “Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənliyi ilə fəxr etməli, biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mədəni dəyərlərini, adət-ənənələrini inkişaf etdirməliyik”.

1920-ci ildə bağlanmış Jen Mironosets kilsəsinin binası 1991-ci ildə Rus Pravoslav Kilsəsinə verilmişdir. Həmin dövr Azərbaycanda səfərdə olan Rusiya Patriarxı II Aleksiy sonra bu kilsəni müqəddəs elan etmiş və ona baş kafedral kilsə statusu vermişdir. Bundan əlavə, paytaxtda yerləşən Pravoslav Məbədi Müqəddəs Məryəmin Miladi Kilsəsi bərpa edilmişdir. Ölkəmizdə hazırda 16 kilsə mövcuddur. Azərbaycanda xristianların əksəriyyəti rus pravoslavlarıdır. ABŞ Dövlət Departamentinin hesabatına görə, onlar müsəlmanlar kimi, din qədər mədəniyyət və etnik mənsubiyyətə də əsaslanmağa meyillidir. Təxminən, 15 minlik ümumi bir yəhudi əhalisinin əksəriyyəti Bakıda yaşayır. Qubada Qırmızı qəsəbə adlı kənd və bələdiyyədə və başqa yerlərdə daha kiçik icmalar mövcuddur. Ölkədə 6 ravvin, 7 sinaqoq və 8 yəhudi icması fəaliyyət göstərir.

Şiə, sünni, rus pravoslav və yəhudilər ölkənin “ənənəvi” dini qrupları hesab olunur. Lüteranların, Roma katoliklərinin, baptistlərin, molokanların (Köhnə möminlərin), yeddinci gün adventistlərinin və Bəhai dininin davamçılarının kiçik icmaları 100 ildən artıqdır ki, mövcuddur. Azərbaycan hökuməti dinlərarası tədbirlər təşkil etməklə də dini tolerantlığı təşviq edir. Prezident İlham Əliyevin təşəbbüsü ilə Bakının Dağ Yəhudiləri dini icması üçün yeni sinaqoq tikilərək 2011-ci ilin aprelində dindarların istifadəsinə verilib. Dövlətimizin başçısı hər il rusları, yəhudiləri və digər icmaları dini bayramları münasibətilə rəsmən təbrik edir.

Heydər Əliyev Fondu və Ohr Avner Fondu “Azərbaycan: Tolerantlığın ünvanı” layihəsi çərçivəsində Bakıda yaşayan yəhudi uşaqlar üçün “Çabad Ohr Avner” Təhsil Mərkəzini inşa edib.

Fəxrlə xatırlayırıq ki, 2016-cı il Azərbaycanda “Multikulturalizm ili” elan edilib. Roma Papası Fransisk ölkəmizə səfər edib. Prezident İlham Əliyev onunla görüşdə deyib ki, biz multikultural, çoxkonfessiyalı ölkə olan Azərbaycanda bütün dinlərin nümayəndələrinin ləyaqətlə yaşaması ilə fəxr edirik.

Növbəti ildə Bakıda “İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq” mövzusunda beynəlxalq konfrans keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə reallaşan konfransda “İslam Həmrəyliyi İli”nə yekun vurulub. 40-a yaxın ölkədən dövlət, din xadimləri, elm xadimləri, 150-yə yaxın nümayəndə, 8 beynəlxalq təşkilatın təmsilçiləri konfransda iştirak edib.

Qloballaşma şəraitində azərbaycançılıq ideyası ümumbəşəri dəyərlərin qorunmasını ehtiva edir. Bu ideya özlüyündə təbii inkişafı sürətləndirib, insan hüquqları kimi ümumbəşəri dəyərləri qoruyur. Biz öz milli-mənəvi, dini dəyərlərimizlə, adət-ənənələrimizlə, tolerantlığımızla fəxr edirik.

*Ayiq SƏMƏDOV*

Təqvim yada salır

# Azəri-Press Agentliyi 20 yaşa çatdı

**Bu gün ölkənin nüfuzlu müstəqil media qurumu olan Azəri-Press Agentliyi – APA-nın yaradılmasının 20-ci ili tamam olur. İnformasiya Aagentliyinin kollektivi əlamətdar yubileyi iş başında keçirərək Azərbaycan paytaxtında davam edən COP29 beynəlxalq iqlim konfransının çoxsaylı məclis və müzakirələrini geniş işıqlandırmaqda davam edir.**

APA Media Qrupun baş direktoru Vüsalə Mahirqızı ilə də COP toplantılarının mərkəzinə çevrilmiş Bakı Olimpiya Stadionunda xarici qonaqlarla həmsöhbət olarkən görüşdük. Həmkarımız bildirdi ki, COP təntənələri onların yubiley sevincini ikiqat yüksəldib. Beynəlxalq məclisin uğurlarından doğan yüksək əhval-ruhiyyə onlar üçün əsl bayramdır.



Fürsət tapıb APA rəhbərindən XQ-yə geniş müsahibə aldıq. “Xalq qəzeti TV”-də artıq tamaşaçılara təqdim etdiyimiz həmin müsahibə ilə növbəti saylarımızda oxucularımız da tanış olacaqlar.

XXI əsr informasiya və kommunikasiya texnologiyaları əsridir. Məhz belə bir




təlatümlü zamanda informasiya məkanına daxil olmaq, özünü təsdiqləmək cəsarət tələb edir. Qətiyyətlə deyə bilərik ki, bu gün fəaliyyətə başlamasının 20 ili tamam olan APA-nın keçdiyi yol, ilk növbədə, cəsarət işidir.

APA informasiya istehsalı prosesində son dərəcə məsuliyyətli missiya yerinə yetirir. Bu missiya Azərbaycana qarşı beynəlxalq miqyasda aparılan qlobal informasiya müharibəsindəki başlıca uğur təminatımızdır.

Bu günün APA-sı Azərbaycan, rus, ingilis, fransız və fars dillərində fəaliyyət göstərir. Onun yayım bloklarında ölkənin siyasi, iqtisadi, sosial, mədəni və idman həyatına, həmçinin bölgəmizdə və dünyada baş verən hadisələrə dair xəbərlərlə yanaşı, regionda və beynəlxalq aləmdə yaşanan mühüm proseslərə həsr olunmuş analitik təhlillər yer alır. Deməli, yubilyar media orqanı zəngin diapazonu ilə də seçilməkdədir.

APA-nın Azərbaycanın bütün bölgələrində, eləcə də Türkiyədə, Rusiyada, Gürcüstanda və İranda ofisləri var. Bu cəhət ona yayımçılıqda eksklüzivlik qazandırır. Media orqanı, eyni zamanda, jurnalistikanın janr müxtəlifliyindən məharətlə bəhrələnir, habelə işini qlobal media konvengersiyasının tələblərinə uyğun şəkildə qurur. Bütün bunlar isə APA-da peşəkar və kreativ mühitin mövcudluğundan qaynaqlanır.

“Xalq qəzeti”nin kollektivi APA Media Qrupun rəhbəri – dəyərli, istedadlı və bacarıqlı həmkar Vüsalə Mahirqızı başda olmaqla, böyük APA ailəsinin hər bir üzvünü 20 illik yubiley münasibəti ilə təbrik edir, onlara möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayır.

**XQ**

**P.S.** *APA Media Qrupun baş direktoru Vüsalə Mahirqızının qəzetimizə müsahibəsi ilə növbəti sayımızda tanış ola bilərsiniz.*

# Ali təhsildə iqlim axtarışı təşviqi

**Təhsil insanların iqlim dəyişikliyinin səbəbləri, təsirləri və bu problemin qarşısını almaq üçün atılacaq addımlar haqqında məlumatlı olmasına kömək edir. Fərdlərin, cəmiyyətlərin və ölkələrin iqlim siyasətlərini formalaşdırmaqda və inkişaf etdirməkdə də təhsil önəmli rol oynayır.**

Mövzu ilə bağlı Azərbaycanın evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində təşkil olunan “Adaptasiya və Ambisiya kimi Təhsil: Ətraf Mühit Təhsilinə Yeni Yanaşma” mövzusunda tədbirdə çıxışı zamanı elm və təhsil nazirinin müavini Həsən Həsənli fikirlərini bölüşüb. O bildirib ki, təhsil iqlim dəyişikliyinə qarşı mübarizənin ən güclü vasitələrdən biridir. Son illərdə təhsil sistemimizə iqlim və ətraf mühit mövzularının inteqrasiyasına xüsusu diqqət yetirilir.

Nazir müavini diqqətə çatdırıb ki, bütün bunlar şagirdlərin ətraf mühit problemlərinə və dayanıqlılığa töhfə verməsinə hesablanıb. Azərbaycanda uğurla tətbiq olunan STEAM təhsili, şagirdlərin “yaşıl enerji”, dayanıqlılıq və yeni texnologiyalarla bağlı real layihələr üzərində işləməsinə imkan yaradır. Bu praktiki tədris onların özünəinamını təmin edir: “Belə bir tədbir Azərbaycandan və 10-dan çox ölkədən gənc yenilikçiləri bir araya gətirir. Bu il festivalı iqlim dəyişikliyinə həsr edərək onu “Yaşıl STEAM Festivalı” adlandırdıq və yaşıl enerji, dayanıqlı həllər və ekoloji təşəbbüslər üzərində qurduq. Ali təhsildə isə artıq iqlim həlləri ilə bağlı tədqiqatları təşviq etməyə başlamışıq və bu səyləri xüsusi proqramlarla genişləndirməyə davam edəcəyik. COP29 çərçivəsində müxtəlif ölkələrdən universitetləri bir araya gətirərək dayanıqlılığın təşviqində lider ola bilmələri üçün müzakirələr aparacağıq”.




Təhsil prosesində əsas rol oynayan müəllimlərin peşəkar bacarıqlarının inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdıran Həsən Həsənli hazırda hər bir müəllimin sinifdə iqlim dəyişikliyi mövzusunu inamla tədris etmək üçün lazımi resurslara sahib olmasını gerçəkləşdirməyin əsas məqsəd olduğunu bildirib.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

# İqlim fəaliyyətinin inkişafında QHT-lərin rolu



**COP29 çərçivəsində noyabrın 15-də “Qlobal Cənub əməkdaşlığı vasitəsilə iqlim fəaliyyətinin inkişafı: QHT-lərin rolu” mövzusunda genişmiqyaslı tədbir keçirilib.**

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə Qoşulmama Hərəkatına üzv ölkələrin, inkişaf etməkdə olan dövlətlərin və ada ölkələrinin vətəndaş cəmiyyəti nümayəndələri fəal iştirak ediblər. Tədbirə, həmçinin müxtəlif beynəlxalq təşkilatların, aparıcı QHT-lərin, dövlət qurumlarının nümayəndələri, elm adamları və iqlim sahəsində fəaliyyət göstərən ekspertlər də qatılıblar.

COP29-un prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev videoçarx vasitəsilə tədbir iştirakçılarına müraciət edərək müzakirə olunan mövzunun əhəmiyyətinə diqqət çəkib: “Bugünkü toplantımız iqlim dəyişikliyinə qarşı mübarizədə ümumi öhdəliyimizin daha bir göstəricisidir. Bu, həll etməli olduğumuz bir sınaqdır və planetimizdəki həyatın gələcəyini müəyyən edəcək. Bu, hər bir ölkənin və hər bir sektorun birgə əməkdaşlığını tələb edir. Mən buradan bütün iştirakçılara və tərəfdaşlara müraciət edərək, razılaşmaların ruhunu şərəfləndirməyə çağırıram. Yalnız birgə səylərimizlə bu problemin öhdəsindən gələ bilərik”.

COP29-un İqlim dəyişmələri üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai videoçarx vasitəsilə müraciətində diqqətə çatdırıb ki, milli hökumətlər, inkişaf siyasətləri, iqlim liderləri və yerli xalqların nümayəndələri qarşısında duran çağırış iqlim dəyişikliyidir: “Gələcək nəsillər üçün daha yaxşı dünya qurmaq məqsədilə birgə fəaliyyətimizi davam etdirməliyik”.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru, COP29 Təşkilat Komitəsinin üzvü Aygün Əliyeva, COP29 Təşkilat Komitəsinin üzvü Nigar Məmmədova, BMT-nin QHT şöbəsinin rəhbəri Vuk Cin Çanq, “Təmiz Torpaqlar” təşəbbüsünün yaradıcısı, 2023-cü il Dünya Ərzaq Mükafatının laureatı Heidi Kuhn və başqaları iqlim məsələləri ilə bağlı daha sıx əməkdaşlıq platformalarının yaradılmasının zəruriliyini vurğulayıblar.

*XQ*

Yeni kitablar

# “Divanı lüğət-it türk”ün Bakı nəşri Nyu-Yorkda

**Nyu-Yorkdakı Türk Evində Mahmud Kaşğarinin “Divanı lüğət-it türk” əsərinin 86 il sonra tapılmış, repressiya qurbanı, özbək əsilli türkoloq Xalid Səid Xocayevə məxsus latın qrafikalı ilk əlyazmasının nəşrinin təqdimatı və sərgisi keçirilib.**



Bu təqdimatı əsərin 950 illik yubileyi çərçivəsində keçirilən silsilə tədbirlərdən fərqləndirən ən əsas məqam Xalid Səid Xocayevin yadigarı – Kanadada yaşayan nəvəsi Əfruz Məmmədovanın ailəsi ilə birgə məclisdə iştirak etməsi olub. Təqdimatda, həmçinin Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyinin, Türk Amerikan Yönləndirmə Komitəsinin (TACS) üzvləri və digər türk ölkələrinin nümayəndələri iştirak ediblər.

Layihə rəhbərinin UNESCO Elektoral qrupunun eksperti, Dünya Dilləri Atlası layihəsinin koordinatoru, AMEA Dilçilik İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Vəfa Abdullayeva-Nəbiyeva olduğu və Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsinin xüsusi dəstəyi ilə keçirilən təqdimatda əvvəlcə “Divan”ın tarixinə həsr olunmuş video göstərilib. Sonra nəşrin “Ön söz” müəllifi – AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Türk aləmində rezonans yaradan bu böyük tapıntı barədə danışıb.

Tədbirdə Milli Məclisin sədr müavini, Nizami Gəncəvi adına Milli Ədəbiyyat Muzeyinin direktoru, akademik Rafael Hüseynov, AMEA Dilçilik İnstitutunun direktoru, Türk Dil Qurumunun fəxri üzvü, professor Nadir Məmmədli, Türk Mədəniyyəti və İrsi Fondunun 1-ci katibi Leyla Həsənova, ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova, Özbəkistan Milli Elmlər Akademiyasının vitse-prezidenti, professor Bəhrəm Abdulxalimov, Xalid Səid Xocayevin nəvəsi Əfruz Məmmədova, tədqiqatçı-jurnalist, Azərbaycan folklorşünası, publisist, AMEA Folklor İnstitutunda xarici ölkələrlə əlaqələr bölməsinin rəhbəri Əli Şamil, Azərbaycan Milli Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun şöbə müdiri Almaz Ülvi Binnətova və BDU-nun professoru Yeganə İsmayılova çıxış ediblər.

Təqdimatda Xalid Səid Xocayevin həyatı, yaradıcılığı, ailəsi haqqında qısametrajlı film və sərgi də nümayiş olunub. Sərgidə kitabın elmi redaktorunun Türk Dil Qurumunun rəhbəri, professor Osman Mertin olduğu, professor Nadir Məmmədlinin rəhbərliyi ilə hazırlanaraq, çap olunmuş yeni nəşri, Xalid Səid Xocayevin arxivi – “Keçmiş günlər”, “Müxtəsər üslubiyyat” və s. elmi-publisistik əsərlərinin siyahısı, özü yazdığı tərcümeyi-halı, ailə fotoları, görkəmli türkoloqdan bəhs edən kitablar yer alıb.

*Ə.ƏLİYEV*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 252 (30656) 16 noyabr 2024-cü il, şənbə

## İdman xəbərləri

### Daşkənddə 5 medal

**Daşkənddə keçirilən "Velvet Road" beynəlxalq turnirində idman gimnastikası üzrə Azərbaycan millisinin üzvləri 5 medal qazanıblar.**




Miryusif Əhmədzadə (gimnastika atı), Nikita Simonov (halqa) və Aydın Əlizadə (halqa) qızıl medala sahib olublar. Aydın Əlizadə, həmçinin gimnastika atı ilə hərəkətdə gümüş medal qazanıb. Eyni hərəkətin icrasında İvan Tixonov 3-cü yeri tutub.

### Ronaldinyonun Azərbaycan paylaşımı




**Braziliya millisinin və "Barselona" klubunun sabiq futbolçusu Ronaldinyo Azərbaycana səfəri ilə bağlı paylaşım edib.**

O, sosial şəbəkə hesabında COP29 çərçivəsində səfər etdiyi Bakıda keçirdiyi görüşlərin görüntülərini bölüşüb.

Əfsanəvi futbolçu səfəri zamanı Azərbaycan futbol klublarının yeniyetmə futbolçuları ilə, həmçinin xüsusi qayğıya ehtiyacı olan uşaqlarla görüşüb və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirak edib.

*L.QURBANOVA*
*XQ*

## Hava

### Gündüz yağmursuz və dumanlı, axşam yağıntılı və küləkli



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 16-da Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gecəyə doğru bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, axşam arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 9-11°, gündüz 14-18° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 758 mm civə sütununa enəcək, nisbi rütubət 70-80 % faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək.

Lakin axşam şimal və qərb rayonlarından başlayaraq, bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, gündüzdən bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3-8°, gündüz 13-18° isti, dağlarda gecə 0-4° şaxta, gündüz 5-10° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

✓ *"Nəsiboğlu "ASC-nin "Nəsiboğlu" MMC-yə çevrilməsi ilə əlaqədar AZ 10019 053 Dövlət Qeydiyyat nömrəli, nominal dəyəri iki manat olan, 39464 ədəd səhmi qeydiyyatdan çıxarılır.*

## MARAQ DÜNYAMIZ

# Yerdə Mars aləminə düşmək istərdinizmi?

## *Bu "möcüzə"ni İordaniyada görmək mümkündür*

**Tanrı, təbiət və tarix bu isti Asiya ölkəsinə bir çox özünəməxsusluqlar bəxş edib. Həmin qeyri-adiliklərdən biri də Vadi Rum (ərəb dilində romalıların dərəsi) səhrası deyilən nisbətən dağlıq ərazidir. Həmin yerə Ay vadisi də deyirlər. UNESCO-nun Dünya təbii irsi siyahısına düşmüş bu vadidə qürub zamanı ecazkar dağların yamaclarında Günəşin işığı tamamilə qırmızı görünür.**





Səyyah və turistlərin fikrincə, buraya gəlmiş insanlar Yer kürəsini tərk etmədən özünü başqa planetdə tapmaq üçün fürsət qazanırlar. Əlavə edilir ki, Mars mənzərəli bu dağlar dünyamızın ən fantastik yerlərindən biridir. Burada hər şey valehedicidir: rənglərlə oynayan qayalar, bir-birinə qarışmayan çoxrəngli qumlar, sonsuz yüksək səma və möhtəşəm, qulaqbatırıcı sükut.

Ancaq sükut burada kiminsə yaşamadığı qənaəti yaratmır. Əksinə, burada tarix boyu müxtəlif köçəri insanların məskunlaşdığı söylənilir. Üstəlik, qeyd edilir ki, ötən əsrin əvvəllərində bütün ərəb dünyasının tarixi burada tərtib edilib. Ancaq burada yaşamış insanlara köçəri deyilməsi də birmənalı olaraq qarşılanmır. Çünki buradakı səhra təsirli qumdaşı dağlarının sıldırım qayalarında və qaya mağaralarında tarixin çox qədim dövrlərindən qalmış qayaüstü rəsmləri və yazıları görmək olar.

Bu gün isə həmin səhranın ortasında çoxsaylı turistləri özünə cəlb edən heyrətamiz otel var. Otelin əsas binasından əlavə, yamac boyu təsbeh kimi düzülmüş (şüşədən və modern konstruksiyalardan hazırlanmış ) 40 qonaq evi buranı həqiqətən heyrətamiz edir.

Bildirilir ki, "Ərəb Lourensi", "Transformerlər", "Qırmızı planet", "Marsda son günlər", "Marslı adam", "Ulduz döyüşləri", "Ələddin", "Qum təpəsi" və bir neçə başqa filmlərin xeyli epizodu burada çəkilmişdir. Burada gündüz hərarət 32–35 dərəcə isti olsa da, gecə 4 dərəcəyədək enir.

İordaniyanın Milli Parkı adı verilmiş bu səhranın əsas canlıları ilan və kərtənkələlərdir. Buradakı qayaların üstündə müxtəlif xalqların təmsilçilərinin "əl izləri" olan yazı və rəsmlər görünür.

*İttifaq MİRZƏBƏYLİ*

## Payız naxışları

# Təbiətin yarpaq tökümü...

## *Adamlar qalın geyinir – ağaclar soyunanda*

**Dünyanın üzünü-astarını görmüş ixtiyar qocalar qərib durnaların cənuba sıralanan qatarına baxıb köks ötürürlər: "Ömrümüzdən bir payız da keçdi...".**



Təbiətdə qədəmi sayalı, ətəyi sovqatlı payız taxta çıxıb. Zümrüd donlu meşələrə indi qızılı-sarı don biçilib, parklar, xiyabanlar rəngbərəng şalını başına atıb, meşə yoluna, bulaq üstə üz tuanların sıraları seyrəlib. Bunu təkcə buz kimi suyu diş donduran bulaq, topa-topa buludların ara-sıra "döyəclənən nağarası", üzü qışa getdikcə əynimizin qalınlaşan geyim-kecimi demir, bunu həm də lalıqlayıb yerə tökülmüş əzgilin, ağacın əlyetməz budağında ilişib qalmış alma-armudun şirinliyi, dadı-ləzzəti deyir. Bəs çılpaq budaqların ucunda görünən yağış damcıları, dağların zirvəsindəki alatala qar xonçası, bir həyətdən sökülüb o biri həyətdə qurulan toy məğarları necə?

İlin-günün bu vədəsi təbiət al-əlvan naxışlı xalını xatırladır. Dünyanın hansı rəngini, hansı naxışını desən, həmin xalının üstündə tapa bilərsən. Biri elə yalçın qayaların başında əlçim-əlçim daranan duman rəngidir – ağ, biri payız yağışlarından sonra yamaclarda göyərən otların rəngidir – yaşıl, biri saplağından qopub üzülən, yellənə-yellənə vida nəğməsi oxuyan yarpağın rəngidir – sarı, biri də toyu təzəcə çalınmış gəlinin xına yaxılmış əllərinin rəngidir –qırmızı...

Ağaclardan qopub yellənə-yellənə yerə düşən yarpaqlar payızdan bahara ünvanlanan məktubları xatırladır. Dağın zivəsində çəhlimə bənzəyən qar cığırları görünür. Yaz-yay aylarında qaynarlığı, gurluğu ilə diqqəti özünə çəkən çöl-çəmən, ormanlar get-gedə rəngini itirərək toydan sonrakı mağar yeri kimi görünür.

Meşənin səssizliyində xəzəllə örtülən cığırların sakitliyi düşüncələri gələcəkdən çox, keçmişə aparır. Nəqməli quşlar da sakit-sakit ağacların arasında dolaşır. Yay uzunu çağlayan bulaqların üstündən əl-ayaq çəkilir, bağlara, bağçalara həzin bir süstlük çökür. Təbiətə lal bir sükut hakim kəsilir...

*Süleyman QARADAĞLI*

### Payızın şeiriyyəti



**Günəşin camalını**
**Bulud pərdələyibdir,**
**Yağış tozu torpağı**
**Yuyub təmizləyibdir.**

**Ağaclar soyunaraq**
**Payızı qarşılayır.**
**Barını səxavətlə**
**İnsana bağışlayır.**

**Qış isə oğrun-oğrun**
**Növbəsini gözləyir.**
**Şaxtalı qılıncını**
**Qar altında gizləyir...**

**Şair xəyala dalıb**
**İzləyir mənzərəni.**
**Ev üşüməsin deyə**
**Bağlayıb pəncərəni.**

**Payızın şeiriyyəti**
**Beləcə çatır sona.**
**Sən, ey əziz oxucu,**
**Dəyər verginən ona!**

**Giya PAÇXATAŞVİLİ**

## XQ-nin fotoekranı

# Güllər gözəlliyin gülən gözüdür



### "Finex Kredit" BOKT ASC səhmdarlarının nəzərinə!

16 dekabr 2024-cü il saat 11.00-da Bakı şəhəri, S.Rüstəm küçəsi 11 nömrəli ünvanda "Finex Kredit" BOKT ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
1. Nizamnaməyə dəyişiklik edilməsi barədə müzakirə.
2. Səhmin alqı-satqısı barədə müzakirə.
3. Müşahidə şurasının tərkibi barədə müzakirə.
4. Şirkətə maliyyə köməyinin edilməsi barədə müzakirə.
5. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə əlaqədar sənədlərlə hər həftənin çərşənbə axşamı saat 12.00-dək tanış ola bilərlər.
Əlaqə telefonu – (+994 12) 440-56-15.
E-mail – info@finexkredit.az
Ünvan – Bakı şəhəri, S.Rüstəm küçəsi 11.

### ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətov və universitetin professor-müəllim heyəti Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova və universitetin professor-müəllim heyəti Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şirvan şəhərindən İlqar Abbasov Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 4001 |
| SİFARİŞ | 2622 |
| QİYMƏTİ | 60 qəpik |

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00